www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 iyun 2017-ci il Cümə № 117 (6731) Qiymətı 60 qəpik

**Xəbər**

## Cahangir Hacıyevə daha bir şok: 1 milyon yeni cərimə

yazısı səh.2-də

**Gündəm**

### Dövlət başçısı Prezident Administrasiyasında dəyişikliklər etdi-kimlər qaldı, kimlər getdi



Müşavir postları ləğv edildi; millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbə yaradıldı

yazısı səh.5-də

### Əfv Komissiyasının bir üzvü əfv olacağını deyir, digəri təkzib edir

yazısı səh.3-də

### Azərbaycanda çoxuşaqlı analar azalıb -iki rəy

yazısı səh.10-da

### Yunuslar Azərbaycana məcburi gətirilə bilər-məhkəmə işi

yazısı səh.4-də

### İlanların Bakıda gizlənməyə yeri qalmayıb-təhlükə

yazısı səh.12-də

### İrəvan addım-addım danışıqlardan imtina edir

yazısı səh.11-də

### Hökumətdən "qara mühasibat" açıqlaması

yazısı səh.5-də

### Hafiz Hacıyev öldürülmə ehtimalından danışdı

yazısı səh.3-də

### Xaricdəki müxalifətlə mübarizənin pərdəarxası

yazısı səh.4-də

**Ramazan ayının 7-ci günü**

İftar 20.21. İmsaq 03.13-dək (QMI)

7-ci günün duası: "İlahi, mənə bu günün orucunu tutmaqda və yaxşı əməllər etməkdə kömək ol! Belə bir gündə məni bu günün əyri yollarından və günahlarından uzaqlaşdır! Məni Öz köməyinlə Səni daim yad etməyə müvəffəq et! Ey, yolunu azmışlara Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## Hərbi nazirlərin üçlü Moskva görüşündə mühüm detal

# KREMLİN QARABAĞ DİLEMMASI - İRƏVAN ƏRAZİLƏRİ QAYTARACAQ

Rusiya konfliktin həllində tezliklə irəliləyişə nail olmasa, bunu onun yerinə başqa güc(lər) edəcək; Moskva İrəvanı silahlandırmaqla öz vəziyyətini çətinləşdirib, çünki...




yazısı səh.8-də

## Azərbaycan Putinin tədbirinə nazir göndərmədi

İyunun 1-də işə başlayan Sankt-Peterburq iqtisadi forumuna Azərbaycan ötən ildən fərqli olaraq yalnız bir şirkət göndərdi; narazılığın yaranmasına səbəb olan ÜAK-la bağlı yeni gəlişmə var

yazısı səh.9-da



Siyavuş Novruzov

### AŞ PA-nın Azərbaycana qarşı rüşvət iddiasına YAP-dan sərt reaksiya

yazısı səh.9-da



*Deputat Eldar Quliyev:*

### "O tini, bu tini dönürsən, 4-5 kilometr gedirsən, dənizə çatmırsan"

yazısı səh.6-da



### "Həzrəti Yusif" serialının ekranlardan yığışdırılmasının ilginc səbəbi

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017



# Şeyx yeni tikiləcək məscidin yerinə baxdı

**Prezident İlham Əliyevin göstərişi əsasında Bakı şəhəri, Yasamal rayonu, Abdulla Şaiq küçəsi, 79 ünvanında yerləşən Hacı Cavad məscidinin həmin rayonun ərazisində yeni ünvanda təməlinin qoyulacağı yerə baxış keçirilib.**

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, məscidin yeni binasının inşa olunacağı əraziyə gələn baş nazirin birinci müavini Yaqub Eyyubov Ramazan ayında dindarlara belə bir xoş töhfəni bəxş edən dövlət başçısının milli-mənəvi dəyərlərimizə böyük ehtiram və qayğısını xüsusi vurğulayıb. Tikiləcək məscidin ərazisi, layihəsi, eskizləri, memarlıq cəhətdən özəllikləri ilə yaxından tanış olan QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə prezident İlham Əliyevin dindarların qayğılarına hər zaman diqqətlə yanaşdığını bildirərək, Bakı şəhərinin keçmiş "Sovetski" adlanan məhəlləsinin dindarlarına edilən bu böyük hədiyyəni yüksək qiymətləndirib.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlət başçısının dindarların mənəvi ehtiyaclarının ödənilməsi üçün tikiləcək yeni məscid binasının yerləşdiyi məkanın olduqca münasib, layihəsinin nəfis tərtibatlı olmasının Azərbaycan dövlətinin, şəxsən prezidentin diqqət və dəstəyinin nəticəsi olduğunu qeyd edib.



# "Trampın məktubu çox xoşuma gəldi"

**"ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə açılır". APA-nın məlumatına görə, bunu Milli Məclisin birinci vitse-spikeri Ziyafət Əsgərov deyib.**

O bildirib ki, Azərbaycanın ABŞ-la münasibətləri hər zaman yaxşı olub: "ABŞ prezidenti Donald Tramp Amerika-Ərəb sammitində çox gözəl bəyanat verdi. Eyni zamanda 28 may münasibəti ilə Azərbaycan prezidenti və xalqını təbrik etdi. Neft və Qaz sərgisində oxunan məktubdan sonra görünür ki, ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə açılır. Biz, əlbəttə, çox istərdik ki, bu belə olsun və davam etsin. Şəxsən onun məktubları və bəyanatı mənim çox xoşuma gəldi. Hər halda, hamı, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq bütün dövlətlər beynəlxalq hüququn bərabərhüquqlu subyektidir və kiminsə kiminsə ağıl öyrətməsi, insan hüquqları, fikir azadlığı adı altında kiminsə daxili işinə qarışması düzgün siyasət deyil və artıq nəticə vermir. Bunu Donald Tramp özü də görür. Dövlətlərlə, sadəcə, əməkdaşlıq və dostluq etmək lazımdır. Azərbaycan da o dövlətdir ki, onunla dostluq etmək olar. O Avropa enerji təhlükəsizliyində mühüm rol oynayır. ABŞ-la münasibətlərimiz də həmişə yaxşı olub. Biz həmişə istəmişik ki, səmimi olaq. Amma bizə qarşı da səmimiyyət olsun. Arzu edək ki, bu səmimiyyət olacaq".

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Cahangir Hacıyevi həbsdən buraxmadılar- 1 milyon da borc yazdılar

**Azərbaycan Beynəlxalq Bankının sabiq sədri Cahangir Hacıyev və digərlərinin birinci instansiya məhkəməsinin qərarından verdikləri şikayət üzrə məhkəmə başa çatıb.**



Lent.az-ın məlumatına görə, Bakı Apelyasiya Məhkəməsində hakim Əflatun Qasımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan edilib. Hakimlər kollegiyasının qərarına əsasən, Cahangir Hacıyev və digərlərinin apelyasiya şikayəti təmin edilməyib və birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Bundan başqa, məhkəmə təqsirləndirilən M.Cahangirovdan tutulmalı olan 1 milyon 200 min manat məbləğində mülki iddianın C.Hacıyevdən tutulması ilə bağlı qərar çıxarıb.

Qeyd edək ki, C. Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktoru vəzifəsində işləmiş Anar Sultanov, bankın mərkəzi filialının müdiri işləmiş İlqar Abdullayev, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov, mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov, bankın nəqliyyat filialının direktoru işləmiş Kənan Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda "AFB Bank"ın sədri olan Məmməd Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş Azad Cavadov Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunub.

C. Hacıyev 15 il, Azad Cavadov 10 il 11 ay, Yusif Ələkbərov 7 il 6 ay, İbrahim Hüseynov 6 il 5 ay müddətinə azadlıqdan məhrum ediliblər.

# ABŞ viza ilə bağlı qaydaları sərtləşdirdi

**ABŞ ölkəyə səfər etmək istəyən əcnəbilər üçün yeni viza anketlərini hazırlayıb.**

APA-nın "Reuters"ə istinadən verdiyi məlumata görə, söhbət konsulluq əməkdaşlarının tələbi ilə doldurulmalı olan əlavə blankdan gedir.

ABŞ-a getmək istəyən şəxslər son 5 ildə sosial şəbəkələrdə istifadə etdikləri adları, mobil nömrələri və elektron ünvanlarını qeyd etməlidirlər. Həmçinin ABŞ-a getmək istəyən şəxslərdən son 15 il üçün bioqrafik məlumatlar, o cümlədən yaşadığı ünvan və səfər etdiyi ölkələrin adları tələb olunacaq.

Yeni tədbirlərin turistlərin yoxlanması prosesinin gücləndirilməsi istiqamətində atılan addımların bir hissəsi olduğu bildirilir. Yeni blank mayın 23-də təsdiqlənib.

# Yağış və 28 dərəcə isti

**İyunun 2-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, arabir tutulacaq. Bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən lent.az-a verilən məlumata görə, bu gün havanın temperaturunun gecə 15-17° isti, gündüz 20-25° isti, Bakıda gecə 15-17° isti, gündüz 22-24° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 6-10° isti, gündüz 12-17° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza gəlincə isə iyunun 2-4-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.



# NATO generalı əsgərlərimizlə görüşdü

**Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirməsi təlimi ilə əlaqədar ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının İzmir şəhərində yerləşən NATO-nun Quru Qoşunları Komandanlığının Qərargah rəisi diviziya generalı Ərhan Uzun Azərbaycan sülhməramlıları ilə görüşüb.**

Müdafiə Nazirliyindən axar.az-a verilən məlumata görə, görüşdə beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasında ölkəmizin səylərini xüsusi qeyd edən diviziya generalı E.Uzun Azərbaycanın NATO ilə əməkdaşlığını, beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfəsini və sülhməramlı əməliyyatlarda azərbaycanlı hərbçilərin peşəkarlığını da yüksək qiymətləndirib.

# Vahid Ələkbərov 5 ayda 1 milyard itirib

**"LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərova ziyan dəyib.**

Lent.az-ın "Bloomberg" agentliyinə istinadən məlumatına görə, şirkətinin səhmlərinin 18% ucuzlaşması iş adamının gəlirlərinin kəskin azalmasına yol açıb.

Azərbaycan əsilli rusiyalı biznesmen ilin əvvəlindən bəri 1 milyard dollar itirib.

Mayın 31-nə Ələkbərovun sərvəti 11 milyard dollara qədər azalıb.

# 82 yaşlı kişi özünü güllələdi

**Bakıda 82 yaşlı kişi özünü ürəyindən güllələyib. "Report" xəbər verir ki, hadisə Sabunçu rayonunda qeydə alınıb. Belə ki, Maştağa qəsəbəsində yaşayan 1935-ci il təvəllüdlü Hacıyev Arif Əli oğlu məktub yazaraq evdə həyat yoldaşının yanında odlu silahdan ürək nahiyəsinə atəş açaraq özünü güllələyib.**

A.Hacıyev hadisə yerində dünyasını dəyişib. Onun meyiti Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə təhvil verilib.

A.Hacıyev məktubunda uzun sürən xəstəliyinə dözə bilmədiyini və bu səbəbdən intihara əl atdığını yazıb.

Fakt bağlı Sabunçu Rayon Prorkurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb.



# ANS-də işləyən müxbir niyə ölkədən qaçırmış?

**Jurnalist Azər İsrafilov yenidən həbs edilib. Bu barədə lent.az-a hüquq-mühafizə orqanlarından məlumat verilib.**

Bildirilir ki, Azər İsrafilov Xaçmaz rayonunun Yalama qəsəbəsi ərazisindən Rusiya Federasiyasına keçmək istəyərkən saxlanılıb. Məlum olub ki, onun barəsində yenidən cinayət işi açılıb və axtarışdadır. A.İsrafilov Bakıya gətirilib.

Qeyd edək ki, A. İsrafilov 2014-cü ildə Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirli bilinərək həbs edilib. O, vətəndaşın 13 min dollar məbləğində pulunu alaraq qaytarmayıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Azər İsrafilov 7 il müddətinə azadlıqdan məhrum edilib. 2 ildən sonra həbsxanadan çıxan jurnalist saytlardan birində müxbir kimi jurnalistlik fəaliyyətinə davam edirdi.

Onu da qeyd edək ki, Azər İsrafilov bir sıra televiziyalarda kriminal müxbir kimi işləyib.

O, 2007-2010-cu illərdə ANS-də çalışıb. Daha sonra isə İctimai Televiziyanın "Qanundan kənar" verilişinin müxbiri kimi fəaliyyət göstərib.

# Ramazanda idman etmək olarmı?

**İdman etmək sağlamlıq üçün əsas şərtlərdən biridir. Hazırda Ramazan günlərini yaşayırıq. Maraqlıdır, Ramazan boyunca idman edərkən nələrə diqqət etmək lazımdır?**

Mütəxəssislər tövsiyə edir ki, oruclu halda günün ən isti vaxtlarında idmanla məşğul olmaz əvəzinə onu iftardan sonraya, havanın sərin olduğu zamanlara saxlamaq lazımdır. Həmçinin Ramazan ayında həddən artıq insanı yoran hərəkətlərdən uzaq olmaq lazımdır. Belə ki, aşırı idman hərəkətləri gözlənilmədən ürək tutmasına, iflicə və sairə ciddi xəstəliklərə səbəb ola bilər.

Əsas tövsiyələrdən biri budur ki, səhər imsakdan sonra 1-2 saat yüngül şəkildə yürüş edilsin. İftarda həddən artıq yağlı və ağır yeməklər əvəzinə vitaminlərlə zəngin yeməklər qəbul etmək lazımdır. Bu, iftardan sonra idmanla məşğul olan zaman insana güc, enerji verir. Həmçinin Ramazan ayı ərəfəsində ilk olaraq idmana başlamaq istəyənlərə tövsiyə edilir ki, bu planlarını Ramazan ayından sonrakı günlərə saxlasınlar. Çünki bədən alışmadığı hərəkətlərdən yorula, stressə girə bilər.

Mütəxəssislər bugünlərdə yoqa kimi təlimlərlə məşğul olmağın daha uyğun olduğunu qeyd edirlər.

❑ XALİDƏ

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

# Hafiz Hacıyev öldürülmə ehtimalından danışdı

## "Təhdidlərlə bağlı mühafizəmi gücləndirmişəm"



**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev qaynarinfo.az saytına açıqlamasında həyatına olan təhlükədən bəhs edib. Partiya sədri bildirib ki, onu öldürmək istəyirlər: "Bilirsiniz ki, rüşvətxorlarla mübarizə apardığım üçün həyatım hər an təhlükədədir. Bu səbəbdən müəyyən dairələr də xəbərdarlıq ediblər ki, ehtiyatlı davranım. Açıq şəkildə prezidenti müdafiə etməyim bəzi qruplar, bəzi dairələrin xoşuna gəlmir. Ona görə də hər an çalışırlar ki, məni həyatdan götürsünlər."**

Məsələ ilə bağlı **"Yeni Müsavat"a danışan H. Hacıyev** söyləyib ki, təhdid olduğu üçün mühafizəsini gücləndirib: "Son vaxtlar verdiyim açıqlamalar, xalqın fikirlərini yuxarılara çatdırmam bəzi şəxsləri, dairələri narahat edir. Ona görə də istəyirlər ki, üzərimə hücuma keçsinlər. Məsələn, hüquqşünas Aslan İsmayılov məni məhkəməyə verib. Deyir ki, guya onu təhqir etmişəm. Əslində isə təhqir yox, tənqid etmişəm. Gürcüstanda tutulanlar göstərdi ki, mən bu barədə bir neçə ay öncə dediyim fikirlərimdə haqlıyam. Rüstəm İbrahimbəyovun Gürcüstana gəlməsi, bizim partiya sədrlərinin gedib orada ən bahalı hotellərdə görüşlər keçirməsini mən daha öncə də bildirmişdim. Aslan İsmayılovu da məhz bu aspektdən tənqid etmişdim. İndi mənim üzərimə gəlir, məhkəməyə verir. Bundan başqa, bəzi məmurları da tənqid etdiyim üçün hakimiyyət daxilində də sözlərimdən narahat olanlar var. Onlar da çalışırlar ki, mənim başıma hansısa iş gətirsinlər. Hakimiyyətin daxilində müəyyən qüvvələr var ki, onlar isə mənim prezidenti açıq şəkildə müdafiə etməyimdən narahatdırlar. Bir sözlə, narahatlıq hissi ilə hamısı sanki baş qaldırıblar. Ölkə prezidentini onun ailəsini və ya digər şəxsləri təhqir edənlərə heç kim reaksiya vermir. Mən dillənəndə isə kimisə qabağa verirlər ki, Hafiz Hacıyevi məhkəməyə versin. Ancaq bütün bunlara baxmayaraq, heç də sakit oturası deyiləm. Yenə də ermənilərə işləyənləri ifşa edib, əlimdəki faktları açıqlayacağam. Bütün bu təhdidlərə görə mövcud olan mühafizəmi son zamanlar daha da gücləndirmişəm. Ancaq məni mühafizə edən şəxslərin kimlər olduğunu, onların harada dayandıqlarını söyləyə bilmərəm. Çünki mənə qarşı olan şəxslərin imkanları böyükdür, çalışarlar ki, onları da ələ alsınlar. Mənə qarşı olanlar bilsinlər ki, Hafiz Hacıyev küçədən keçən adam deyil. Hər halda, özümüzü qorumağı bacarırıq".

**Hafiz Hacıyev bildirib ki, bütün təhdidlərə baxmayaraq, partiya fəaliyyətlərini də gücləndiriblər və prezident seçkilərinə hazırlaşırlar:** "Elçibəy hakimiyyəti dövründə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı işləmiş, Milli Şuranın üzvü olmuş Bağırov Rahim Yaşar oğlu partiyamızın sıralarına daxil olmaq üçün ərizə ilə müraciət edib. Artıq o, partiyaya üzv kimi qəbul olunub".

**H. Hacıyev söyləyib ki, yaxın zamanlarda mitinq keçirməyi planlaşdırırlar:** "Bizdə mitinq komitəsi daimi fəaliyyət göstərir. Açığı deyim ki, bugünlərdə mitinq keçirməyi planlamışdıq və bunun üçün lazımi işləri də aparırdıq. Ancaq Azərbaycanda beynəlxalq yarışların keçirilməsi səbəbindən, bu planımızı bir qədər ertələdik. Buna baxmayaraq, indi də mitinqlə bağlı zəruri işlərimizi görürük. Azərbaycanın əleyhinə işləyən partiyaları ifşa etmək üçün çox böyük mitinqimiz gözlənilir. Biz onlara göstərəcəyik ki, stadionu necə doldururlar. Hər halda, Azərbaycanda müxalifətin nə olduğunu hər kəsə sübut edəcəm. Bəzi nazirlər var ki, onları da yola salacağam".

❑ **Əli RAİS**

# Əfv Komissiyasının bir üzvü əfv olacağını deyir, digəri təkzib edir

**15 iyun Qurtuluş günü və 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi günü ilə bağlı əfv sərəncamının veriləcəyi gözlənilir. Bu barədə lent.az-a Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü, Milli Məclisin deputatı Elmira Axundova məlumat verib.**



**Elmira Axundova:**
"15 iyun və ya 18 oktyabr tarixlərinin birində əfv sərəncamı veriləcək"




**Əlimməmməd Nuriyev:**
"Yaxın günlərdə, aylarda əfv sərəncamının imzalanmasını gözləmirəm"

"Artıq biz sənədləri toplayırıq və həmin sənədlərə baxırıq. Mən hesab edirəm ki, artıq növbəti əfv sərəncamının vaxtı çatıb. Bununla bağlı müəyyən işlər görülür. Ona görə də deyə bilərəm ki, 15 iyun və ya 18 oktyabr tarixlərinin birində əfv sərəncamı veriləcək. Bununla da daha bir qrup məhkum azadlığa qovuşacaq" - deyə, xanım deputat bildirib.

Onun sözlərinin ardından əfv məsələsi hər zaman olduğu kimi yenidən aktuallaşıb. Bunun fonunda həbsdə olan siyasi məhbusların azadlığı bir daha gündəm olub. Düzdür, elə siyasi məhbuslar var ki, əfvə düşmək şansları sıfıra bərabərdir. Çünki onlar barəsində yekun məhkəmə qərarı yoxdur, istintaqları gedən siyasilər də var. Amma bununla belə, əfvə düşmə şansları yüksək olan siyasi məhbuslar da var ki, veriləcək əfvdə onların azadlığa çıxa biləcəkləri qeyd olunur. Bu sırada REAL hərəkatının rəhbəri İlqar Məmmədov, NİDA-çı gənc İlkin Rüstəmzadə, vəkil Əliabbas Rüstəmov kimi barələrində məhkəmə qərarları olan şəxslərin adlarını çəkmək olar.

Bir deputatın dilindən əfv sərəncamının veriləcəyi ilə bağlı səslənən fikirlərin təsadüf olmadığı vurğulanır. Bu baxımdan, ilin sonuna qədər əfvin verilmə ehtimalları yüksək dəyərləndirilir.

**Əfv Komissiyasının üzvü, hüquqşünas Əlimməmməd Nuriyev yayılan xəbərlərə belə münasibət bildirdi:** "Əfv sərəncamının imzalanması cənab prezidentin müstəsna səlahiyyətinə aiddir. Bu baxımdan, o sərəncamı nə zaman verməyi ölkə başçısı müəyyən edir. Bir qayda olaraq, ölkəmizdə tarixi günlərdə, milli bayramlarda əfv sərəncamı verilə bilər. Son illərdə əfv sərəncamının daha çox Novruz bayramında və 31 dekabrda Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni illə bağlı verildiyinin şahidi olmuşuq. Nəzərə alaq ki, sonuncu belə sərəncam mart ayında imzalanmışdı. 423 məhbusa şamil olunmuşdu. Yaxın günlərdə, yaxud qarşıdakı zamanların birində əfv sərəncamının veriləcəyini konkret söyləmək mümkün deyil, çünki bir daha deyirəm ki, bu, ölkə başçısına aid məsələdir".

**Komissiya üzvü əfvin olmama ehtimallarından da söz açdı:** "Nəzərə alaq ki, sonuncu əfvdən az müddət vaxt keçib. Bu baxımdan, yaxın günlərdə, aylarda əfv sərəncamının imzalanmasını gözləmirəm. Məsələnin digər tərəfinə gəlincə isə əlbəttə, Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsi, Əfv Komissiyasının katibliyi daimi fəaliyyət göstərdiklərinə görə hər gün, hər həftə məhkumların özləri, onların yaxınları, vəkilləri və müxtəlif təşkilatlar, deputatlar tərəfindən müraciətlər daxil olur. Eyni zamanda Əfv Komissiyasının üzvlərinə edilən müraciətlər də katibliyə yönləndirilir. Bütün daxil olan məlumatlarla bağlı ciddi araşdırmalar aparılır. Əfv Komissiyasının iclaslarının müəyyən edilməsi komissiya sədrinin səlahiyyətinə aid məsələdir. Yaxın günlərdə Əfv Komissiyasının iclasının olması ilə bağlı məlumata malik deyiləm".

❑ **Cavanşir ABBASLI**



# Qarabağ veteranı müavinətini ala bilmir

## Müvafiq qurumlar isə onun şikayətinin əsassız olduğunu bildirir

**Qarabağ qazisi, 2-ci qrup əlil olan 46 yaşlı Mehman Behbudov redaksiyamıza gələrək şikayətlənib. Hazırda Qaradağ rayonu, Lökbatan qəsəbəsində yaşayan şikayətçinin sözlərinə görə, illərlə mübarizə aparıb Qarabağ veteranı vəsiqəsini alsa da, veteran pulunu ala bilmir: "Laçın rayonundan məcburi köçkünəm. 1993-94-cü illərdə Horadiz əməliyyatının iştirakçısı olmuşam. Buna baxmayaraq, veteran vəsiqəsini ala bilmirdim. İki il müxtəlif nazirlik və qurumlara müraciət etdim. Silahdaşlarım və mətbuatın dəstəyi sayəsində nəhayət ki, layiq olduğum vəsiqəni ala bildim. Lakin bu günə qədər veteran pulunu ala bilmirəm. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə müraciət etsəm də, bildirilib ki, əlillik müavinətini aldığım üçün veteran müavinəti ala bilmərəm".**

Şikayətçinin sözlərinə görə, sağlamlığında ciddi problemlər olduğundan işləmək qabiliyyəti yoxdur. Aldığı əlillik müavinəti nəinki müalicəsinə, dolanması üçün də yetərli deyil: "2012-ci ildə avtomobil qəzası səbəbindən aylarla yataq xəstəsi oldum. İndi də sağlamlığımda ciddi problemlər var, təcili əməliyyata, müalicəyə ehtiyacım var. Lakin aldığım 170 manat əllilik müavinətim mənim gündəlik dolanışığıma belə yetmir. Ailəm, ata-anam da yoxdur. Veteran müavinətini isə vermək istəmirlər.

Müalicə almaq üçün sanatoriyaya göndərilməyimi xahiş etsəm də, nazirlikdən bildirildi ki, hələ büdcədə pul yoxdur".

**Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən bildirildi ki, M.Behbudovun müharibə veteranı kimi aylıq sosial müavinət verilməməsi ilə bağlı şikayəti əsassızdır:** "M.Behbudov 12 iyul 2013-cü il tarixdən II qrup əlilliyə görə aylıq əmək pensiyası ilə təmin olunur. M.Behbudov 19 may 2016-cı il tarixdə müharibə veteranı vəsiqəsini alaraq həmin ilin noyabr ayında nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun Qaradağ rayon şöbəsinə təqdim etmişdir. Bundan sonra M.Behbudovun döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçısı olduğu nəzərə alınaraq, onun əmək pensiyasının üzərinə yaşa görə əmək pensiyasının baza hissəsinin 10 faizi məbləğində əlavə hesablanmış və həmin əlavələr də veteran vəsiqəsinin verildiyi tarixdən ötən dövr üçün bütünlüklə hesablanaraq ona ödənilmişdir.

M.Behbudov hazırda əlilliyə görə 170,43 manat aylıq əmək pensiyası ilə təmin olunur".

**Nazirlikdən həmçinin qeyd olunub ki, şikayətçi əmək pensiyası ilə bərabər, müharibə veteranı kimi ona kommunal, nəqliyyat və digər xidmətlərə görə aylıq sosial müavinət də verilməsini tələb edib:** "Ona izah olunmuşdur ki, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.6-cı maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət onu almaq hüququ müəyyən edilmiş şəxslərin əmək pensiyası hüququ olmadıqda verilir.

Verilən izahatla razılaşmayan M.Behbudov 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir. 14 oktyabr 2016-cı il tarixli qərarı ilə həmin iddia rədd edilib".

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova isə qeyd etdi ki, xaricdə müalicə almaq istəyən xəstələr ilk öncə Səhiyyə Nazirliyinə müraciət etməlidirlər:** "İlk növbədə komissiyadan keçirlər və rəy verdikdən sonra onlar xaricdə müalicəyə göndərilirlər. Şəxs o zaman xaricə göndərilir ki, onun xəstəliyinin Azərbaycanda müalicəsi olmasın. Eyni zamanda müalicə üçün göndərilən ölkələrlə Azərbaycan arasında müqavilə olmalıdır".

**Səhiyyə Nazirliyinin Vətəndaşların respublikadankənar müalicəyə göndərilməsi məsələləri üzrə komissiyasının sədri Nəsib Quliyev isə məsələyə bu cür izah verdi:**

"Xəstələrin xaricdə müalicə almaq məsələsinə Səhiyyə Nazirliyi deyil, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi baxır. Orda aydınlaşdırırlar ki, kim harada müalicə ala bilər. Komissiya xəstələrə rəy verir, xidmət isə qeyd etdiyim kimi, ƏƏSMN tərəfindən aparılır".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

# Xaricdəki müxalifətlə mübarizənin pərdəarxası

**Azərbaycan hökumətinin xaricdə şəbəkələşməyə üstünlük verən ölkə müxalifətinin tərəfdarları ilə bağlı atdığı sərt addımlar ətrafında müzakirələr səngimək bilmir. Görünən odur ki, "bu xəmir hələ çox su aparacaq..."**

Ölkə iqtidarının xaricdəki müxalifətçilərlə bağlı hərəkətliliyi bəzi iddialara yol açıb. Belə fikirlər var ki, ölkə kənarındakı müxalif şəbəkələrin getdikcə hakimiyyət üçün ciddi təhlükə mənbəyinə çevrilməsi iqtidarı bu addımları atmağa vadar edib. Bu prosesə qonşu Gürcüstandan başlanılmasına səbəb kimi bu ölkəyə müxalifətçilərin zaman və maliyyə baxımından daha tez getdikləri göstərilir və xüsusilə son iki ildə bu ölkədə müxalif şəbəkənin daha çox gücləndiyi qeyd olunur.

Bəzi siyasətçilər isə ilin sonuna qədər ölkə daxilində ciddi siyasi proseslərin baş verəcəyini bildirirlər. Belə siyasətçilərdən biri olan VİP sədri Əli Əliyev hətta ilin ikinci yarısında ölkədə prezident seçkilərinin keçiriləcəyini deyir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev səslənən iddiaları qəbul etmir:** "Baş verən hadisələr barədə elə də məlumatlı deyiləm. Bunu ətraflı şəkildə müvafiq icra strukturlarından öyrənmək lazımdır. Amma hesab etmirəm ki, Azərbaycanda siyasi mövqeyinə görə təqiblər var, ölkə xaricində müxalif fəalları zərərsizləşdirmək üçün yollar axtarılsın. Azərbaycanda mətbuat da, siyasi fəaliyyət də azaddır. Son günlərdə həbs edilən şəxslərin əməllərində cinayət üzə çıxıbsa, bunu müvafiq strukturlardan öyrənmək lazımdır. Bəlkə çox ciddi səbəblər olduğundan bu addım atılıb. Əgər belədirsə, heç bir qüvvə Azərbaycana qarşı heç nə edə bilməz. Belə məsələlərdə Azərbaycanın müqaviməti hər zaman güclüdür".

**Politoloq Elçin Mirzəbəyli məsələni bir kontekstdən dəyərləndirməyin əleyhinədir:** "Həbs edilən şəxslərin saxlanılması tamamən fərqli müstəvilərdə baş verib. Bir həbs əgər sərhədi keçərkən baş veribsə, digəri sərhədlə bağlı qanunu pozarkən baş verib. Burada hüququ müstəvilərin olduğu açıqlanıb. Heç kimə sirr deyil ki, bəzi QHT-lər, siyasi partiyalar xarici donorlardan aldıqları vəsaitləri vergidən yayındırmaq üçün Gürcüstan üzərindən prosesi həyata keçirirlər. Gürcüstanda hesab açılıb, bu hesaba müxtəlif təşkilatlardan vəsaitlər köçürülür. Bu da qanunvericiliyə zidd olan fəaliyyətdir. Məsələyə bu kontekstdən yanaşılmasının tərəfdarıyam. Siyasi kontekstdən yanaşanda həbs edilən iki şəxsin hakimiyyət üçün təhlükə yaradacaq fiqurlar olmadığını düşünürəm. Radikal müxalifət daxilində hakimiyyət üçün təhlükəli olacaq siyasi lider də yoxdur. Gürcüstanla bağlı məsələ uzun illərdir davam edirdi. Azərbaycan üzərinə düşəni hüquqi müstəvidə həll edir. Açığı, düşünmürəm ki, son həbslərlə Azərbaycan-Gürcüstan arasında soyuqluq yaranacaq. Əslində Gürcüstan Azərbaycan QHT-lərinə və siyasi partiyalarına öz ərazisində xarici donorlardan vəsaitlər almaq üçün şərait yaradırsa, bunun özü qeyri-səmimi davranışdır. Bu davranış dövlətlərarası əlaqələrə də ziddir, nəinki Azərbaycanın atdığı addımlar. Gürcüstan bu gün Azərbaycanın iqtisadi potensialına görə ayaq üstə dayanıb. Gürcüstan sonunu gətirmək, əvvəlki həyata qayıtmaq istəyirsə, müəyyən addımlar ata bilər. Buna da gedəcəyi real deyil. Təsəvvür edin ki, Gürcüstanın bu gün atdığı addımları Azərbaycan eyni ilə bu dövlətə qarşı atır, gürcü hakimiyyətinə qarşı olan insanlara burada fəaliyyət göstərməyə imkan yaradır, onların xaricdən maliyyə almalarına da şərait yaradır. O zaman Gürcüstanın buna münasibəti necə olacaq? İndiki vaxtda Gürcüstan qeyri-səmimi davranır və bunun üçün Azərbaycanı ittiham etməyə heç bir haqqı yoxdur".



**Fərəc Quliyev:** "Heç bir qüvvə Azərbaycana qarşı heç nə edə bilməz"



**Elçin Mirzəbəyli:** "Gürcüstan qeyri-səmimi davranır"

**Politoloq digər ölkələrdə azərbaycanlı mühacirlərlə bağlı da bu cür addımların atılıb-atılmayacağından söz açdı:** "Azərbaycan hökumətinin bu istiqamətdə əlavə addımlar atacağını bilə bilmərəm. Bu barədə məlumatlı da deyiləm. Məsələyə siyasi mühacir kontekstindən yanaşılması da düzgün deyil. Ölkənin milli maraqları naminə fəaliyyət göstərənlərlə bağlı təbii ki, dövlət bu maraqları qorumaq üçün üzərinə düşən addımları atacaq. Təbii ki, həmin şəxslər Azərbaycan vətəndaşları olacaqları təqdirdə bu addımlar atılacaq. Amma başqa istiqamətdə indiyə qədər daim xarici ölkə vətəndaşlığını alanların ölkəmizə qarşı hansı fəaliyyət göstərdiklərini görmüşük. Hökumət də onların əməllərini ifşa edən sübutlar ortaya qoyub. Ölkə daxilində baş verə biləcək siyasi proseslərlə bağlı son hadisələrin baş verdiyi barədə fikirlərə gəlincə, belə fikirlər tamamilə absurddur. Çünki bu insanların heç biri nəinki yüz nəfərə, heç özlərinə liderlik etmək keyfiyyətinə malik deyillər. Bu informasiyalar məlum dairələr tərəfindən ortaya atılır. Proseslərin fərqli istiqamətə gedəcəyi ilə bağlı ictimai rəy formalaşdırmağa çalışırlar. Əslində bunlar Rusiya başda olmaqla, ayrı-ayrı dövlətlərin apardıqları təbliğatın tərkib hissələrindən biridir. Təbii ki, ölkədə müəyyən problemlər var və hakimiyyət də bunları aradan qaldırmaq üçün addımlarını atır. İqtidar bundan yaxşısını da edə bilər və etməlidir də. Yanlış informasiyaları həqiqət kimi sırımaq hər bir dövlətin milli maraqlarına ziddir. Bu məsələlərin hər birində xarici dairələrin məqsədyönlü fəaliyyəti var".

❑ Cavanşir ABBASLI

# Yunuslar Hollandiyadan Azərbaycana məcburən gətirilə bilər - məhkəmə işi



## Vəkil: "Çalışacağıq ki, növbəti məhkəməyə qədər gətirilmə ilə bağlı qərarın surətini əldə edək"

**Mayın 31-də Bakı Apelyasiya Məhkəməsində Leyla Yunus və həyat yoldaşı Arif Yunusun barəsində çıxarılmış hökmdən verilmiş şikayət üzrə məhkəmə prosesi keçirilib. Məhkəmədə işə baxan hakim Mirpaşa Hüseynov bildirib ki, Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və həyat yoldaşı, tarixçi-alim Arif Yunusun məhkəməyə məcburi gətirilməsi haqda mayın 17-də çıxarılmış qərar uyğun orqanlara göndərilib. Hələlik nəticəsi yoxdur . O həmçinin bildirib ki, Yunusların məcburi gətirilməsi qərarının nəticəsini daha bir ay gözləyəcək: "Nəticə olmasa, növbəti addım atılacaq" - deyə, hakim bildirib.**

**Yunusların vəkili Elçin Sadıqov** "Yeni Müsavat"a bildirib ki, məhkəmədən məcburi gətirilmə qərarının surətini istəyib, ancaq ala bilməyib:

"Təqsirləndirilən şəxs barəsində olan qərarlar müdafiəçiyə verilməlidir. Əlavə olaraq onu da deyim ki, keçirilən məhkəmə təxirə salındı. Bunun da səbəbi odur ki, polis məcburi gətirmə qərarı ilə bağlı heç bir məlumat verməyib. Növbəti məhkəmə iclası iyulun 3-nə təyin olunub. Çalışacağıq ki, həmin zamana qədər qərarın surətini əldə edək. Əslində biz onların dindirilməsinin elektron qaydada aparılması ilə bağlı vəsatət qaldırmışıq. Müvafiq sosial şəbəkələr vasitəsilə bunu etmək mümkündür. Azərbaycanda da artıq elektron məhkəmələrlə bağlı islahatlar aparılır. Biz hesab edirik ki, məhkəmə bu qərarı tətbiq etməlidir".



Elçin Sadıqov

Qeyd edək ki, ötən il dekabrın 27-də Ali Məhkəmədə L.Yunus və A.Yunusun işi üzrə Bakı Apelyasiya Məhkəməsinin 9 dekabr 2015-ci il tarixli qərarı ləğv edilib və işə yenidən apelyasiya instansiyasında baxılması qərara alınıb. L.Yunus Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 192.2.2-ci (qanunsuz sahibkarlıq, külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.2.2-ci (vergi ödəməkdən yayınma, külli miqdarda törədildikdə), 320.1-ci (rəsmi sənədləri saxtalaşdırma) maddələri ilə ittiham olunub. A.Yunus isə Cinayət Məcəlləsinin 274 və 178.3.2-ci maddələri ilə ittiham olunub. Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust 2015-ci il tarixli hökmü ilə L.Yunus 8 il 6 ay, A.Yunus isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər.

Həmçinin məhkəmə onların əmlakının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi haqqında qərar verib. Noyabrın 12-də Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə A.Yunus barəsində həbs-qətimkan tədbiri dəyişdirilib və ondan başqa yerə getməməklə bağlı iltizam alınıb. Dekabrın 9-da isə L.Yunus barəsində seçilmiş həbs-qətimkan tədbiri ləğv edilib, o, 5 il sınaq müddəti təyin olunmaqla məhkəmə zalından şərti azadlığa buraxılıb. Bundan başqa, onun qızının evinə qoyulmuş həbs götürülüb. Həmin məhkəmə qərarından narazı qalan L.Yunus və A.Yunus kasasiya şikayəti veriblər. Onlar barələrində bəraət hökmü çıxarılmasını istəyirlər. 2016-cı il aprel ayında L.Yunus və A.Yunus Azərbaycanı tərk edərək, Hollandiyaya gediblər.

Hazırda Hollandiyada yaşayan Leyla Yunus və həyat yoldaşı o vaxta qədər gəlməsə, növbəti iclasda onların barəsində həbsli axtarış qərarı çıxarıla bilər.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

**Ölkə prezidenti İlham Əliyev iyunun 1-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunda dəyişiklik edilməsi barədə bir sıra mühüm sərəncamlar imzalayıb. Həmçinin dövlət başçısı özünə yeni köməkçilər təyin edib.**

# Prezident Administrasiyasında mühüm struktur dəyişiklikləri

## Ölkə prezidenti müşavirlik institutunu ləğv etdi; yeni prezident köməkçiləri təyin olundu; birinci vitse-prezidentin köməkçisi və katibliyinin rəisi vəzifəsinə təyinatlar oldu



Administrasiyanın yeni strukturunun tərkibi president.az saytında dərc olunub. Hazırkı struktur belədir:

Prezident Administrasiyasının rəhbəri: Ramiz Mehdiyev

Prezidentin köməkçisi: Cəmilə Abbasova

Birinci vitse-prezidentin Katibliyinin rəisi: Altay Həsənov

Prezidentin aqrar siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri: Azər Əmiraslanov

Prezidentin ərazi-təşkilati məsələləri üzrə köməkçisi-şöbə müdiri: Zeynal Nağdəliyev

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi: şöbə müdiri Fuad Ələsgərov

Prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri: Novruz Məmmədov

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri: Əli Həsənov

Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri: Əli Əsədov

Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi-şöbə müdiri: Natiq Əmirov

Prezident Katibliyinin rəisi-prezidentin köməkçisi: Dilarə Seyidzadə

Prezidentin mətbuat katibi: Azər Qasımov

Prezidentin protokol xidmətinin rəisi: Elçin Bağırov

Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri: Tələt Mecidov

Dövlət nəzarəti şöbəsinin müdiri: Eldar Nuriyev

Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri: Yusuf Məmmədəliyev

Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri: Şahin Əliyev

Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri: Süleyman İsmayılov

Strateji araşdırma və planlaşdırma şöbəsinin müdiri: Səadət Yusifova.

APA-nın məlumatına görə, iqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri və millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri vəzifələri ləğv edilib. İqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri vəzifəsinin bazasında İqtisadi siyasət və sənaye məsələləri şöbəsi yaradılıb. İndiyədək prezidentin iqtisadi islahatlar üzrə köməkçisi olmuş Natiq Əmirov həm də həmin şöbənin müdiri təyin olunub.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri postunun bazasında isə prezidentin millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi-şöbə müdiri vəzifəsi yaradılıb. Bu vəzifəyə hələlik təyinat yoxdur. Qeyd edək ki, İqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri postunu Vahid Axundov, Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri postunu isə Kamal Abdulla tuturdu.

Elə həmin gün Kamal Abdulla Azərbaycan Dillər Universitetinə rektor təyin edilib.

Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə də vəzifəsindən azad olunub. Prezident Administrasiyasının yeni strukturunda Humanitar siyasət məsələləri şöbəsinin müdiri vəzifəsi boşdur.

Prezident İlham Əliyevin fərmanına əsasən, Prezident Administrasiyasında yeni şöbə - idman və gənclər siyasəti şöbəsi yaradılıb. İdman və gənclər siyasəti şöbəsinin müdiri vəzifəsinə Yusif Məmmədəliyev təyin edilib. Y.Məmmədəliyev görkəmli alim Yusif Məmmədəliyevin nəvəsidir.

O, uzun müddət Heydər Əliyev Fondunun əməkdaşı olub.

Eyni gündə birinci vitse-prezident Mehriban Əliyevanın Katibliyinin rəisi vəzifəsinə təyinat olub. Prezidentin imzaladığı sərəncama əsasən Altay Həsənov Katibliyin rəisi təyin olunub.

❑ **Elşad PAŞASOY**

## Prezidentin köməkçisi PA-dakı son struktur dəyişikliyini şərh etdi - eksklüziv

**Əli Həsənov:** "Struktur dəyişikliyi Prezident Administrasiyasının fəaliyyətində dinamikliyin, çevikliyin və optimallığın təmin edilməsi məqsədi daşıyır"



Əli Həsənov

**Ölkə prezidenti İlham Əliyevin iyunun 1-də imzaladığı sərəncamla Prezidentin Administrasiyasının strukturu dəyişib. Həmçinin dövlət başçısı özünə yeni köməkçilər təyin edib.**

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov musavat.com-un əməkdaşının suallarını cavablandırıb və imzalanan sərəncamı şərh edib. Dövlət rəsmisi bunları bildirib: "Bildiyimiz kimi, 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumdan sonra Azərbaycanda səmərəli və çevik dövlət idarəçiliyi mexanizminin formalaşdırılması, icra hakimiyyəti şaquli̇sinin və icra intizamının möhkəmləndirilməsi, həyata keçirilən iqtisadi islahatların effektivliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanıb. Hesab edirəm ki, Azərbaycanda vitse-prezidentlik institutunun yaradılması, hörmətli Mehriban xanım Əliyevanın birinci vitse-prezident təyin olunması, həmçinin Prezident Administrasiyası başda olmaqla, ölkənin idarəetmə sistemi və icra mexanizmində həyata keçirilən mühüm dəyişikliklər qarşıya qoyulan məqsədlərə çatmaq üçün atılan zəruri və məqsədyönlü addımlardır.

Konkret olaraq Prezident Administrasiyasına gəldikdə, deyə bilərəm ki, cənab prezidentin sərəncamı ilə həyata keçirilən struktur dəyişikliyi yeni situasiyaya və çağırışlara uyğun olaraq ölkənin ali icra orqanının fəaliyyətində dinamikliyin, çevikliyin və optimallığın təmin edilməsi məqsədi daşıyır. Qeyd edim ki, mövcud struktur dəyişikliyinə əsasən, ilk öncə birinci vitse-prezidentin xidməti formalaşdırıldı. Həmçinin Azərbaycan prezidentinin köməkçilərinin sayı 10-a çatdırıldı. Onlardan 8-i eyni zamanda müvafiq şöbələrə rəhbərlik edirlər.

Bundan başqa, dövlət müşavirliyi institutu və Prezident Administrasiyası rəhbərinin müavini vəzifəsi ləğv olundu. Administrasiyanın tərkibində 2 yeni struktur bölməsi - Gənclər siyasəti və idman məsələləri, habelə Elektron hökumət şöbələri yaradıldı, bəzi digər şöbələrin funksiyaları və fəaliyyət istiqamətlərinə müəyyən dəyişikliklər edildi.

Əminəm ki, Prezident Administrasiyanın yeni strukturu cənab prezidentin müəyyən etdiyi islahatlar kursunu uğurla reallaşdırmaq və qarşıya qoyulan vəzifələri daha effektiv şəkildə icra etmək üçün səmərəli mexanizm kimi özünü təsdiq edəcəkdir".

❑ **musavat.com**

# Hökumət rəsmisindən "qara mühasibat" açıqlaması

## Ekspert: "Azərbaycan hökuməti ancaq qamçıdan istifadə edir ki, bu da doğru yol deyil"

**Hazırda hökuməti ən çox narahat edən məsələlərdən biri də "qara mühasibat"dır. Son olaraq baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsinin Təkmilləşdirilməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov "Azərbaycan" qəzetinə müsahibəsində bu məsələyə toxunub və həyəcan təbili çalıb.**

Baş nazirin müavini bildirib ki, "qara mühasibat"da ən çox yayılmış üsul işəgötürənlərin işçilərinin sayını azaltmasıdır: "Bir çox iqtisadi fəaliyyət sahələri mövcuddur ki, qanunlarda və normativ aktlarda mövcud olan boşluqlar onlara öz bəd əməllərini həyata keçirməyə münbit şərait yaradır. Əmək münasibətlərinin rəsmiləşdirilməməsi, istifadə olunan işçilərin sayının gizlədilməsi hallarına tikintidə daha çox rast gəlmək mümkündür".



Əli Əhmədov

**Ə.Əhmədov onu da qeyd edib ki, "qara mühasibat"ın geniş yayılmış digər forması özəl sektorda əmək haqqının ödənilməsində lazımi şəffaflığın olmamasıdır:** "Bəzi işəgötürənlər mühasibat uçotu sahəsində olan boşluqlardan faydalanaraq, xalq arasında yayılmış terminologiyadan istifadə etsək, "qara mühasibat"a əl atırlar. "Qara mühasibat"ın mahiyyəti ondan ibarətdir ki, işçiyə verilən əmək haqqının az bir hissəsi rəsmiləşdirilir, çox hissəsi isə rəsmiləşdirilmir. Nəticə etibarilə həm hüquqi şəxs, həm də işçi vergi və məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınmış olurlar. Nəhayət, fərdi sahibkarlar və özüməşğul əhalinin müzakirə etdiyimiz kontekstdə, yumşaq desək, qəribə davranışını qeyd etmək istərdim.

Bu gün vergidən, ələlxüsus məcburi dövlət sosial sığorta haqqını ödəməkdən yayınan insanlar bilərəkdən qocalıqda özlərini pensiya hüququndan məhrum edirlər. Təhlillər göstərir ki, qeyri-rəsmi məşğulluq kifayət qədər geniş yayıla bilmişdir. Bu tipli qanun pozuntularına tikinti ilə yanaşı, ticarət, iaşə, nəqliyyat, xidmət sahələrində tez-tez rast gəlinir".

Bəs görəsən, "qara mühasibat"ın başqa hansı forma və metodları var, özəl sektorda bu necə həyata keçirilir? Hökuməti narahat edən "qara mühasibat"ın iqtisadiyyat üçün, dövlət büdcəsi üçün mənfi təsirləri nələrdir?

**"Yeni Müsavat"ın bu suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, bir çox istiqamətlər üzrə "qara mühasibat" mövcuddur:** "Birincisi, dövriyyənin gizlədilməsi yolu ilə "qara mühasibat"a əl atılır. Bu gün iri ticarət mərkəzlərindən tutmuş xırda obyektlər, ictimai-iaşə obyektlərində qədər dövriyyənin azaldılması yolu ilə həm gəlirlərin az göstərilməsi, həm də buna uyğun olaraq vergilərin də az verilməsi prosesi baş verir. "Qara mühasibat"ın ən geniş yayılmış formalarından biri budur. İkincisi, əmək haqqının aşağı qiymətlərlə rəsmiləşdirilməsi və müqavilənsiz çalışanların sayının həddindən artıq çox olması "qara mühasibat"ın yaranmasına səbəb olan amillərdən biridir. Digər sahələrdə rəsmiləşdirilmiş müqavilələrdə öhdəliklərin aşağı qiymətlərlə göstərilməsi də "qara mühasibat"a gətirib çıxarır. Məsələn, icarə müqavilələrinə görə icarədar hər ay gəlirin 14 faizini vergi həcmində ödəməlidir. Bu səbəbdən tərəflərin razılığı ilə icarə haqqı müqavilədə çox aşağı qiymətə rəsmiləşdirilir və daha az məbləğin 14 faizi vergi şəklində ödənilir. Qalan məbləğ isə qeyri-rəsmi verilir. Bəzən isə icarə ilə bağlı razılaşmalar ümumiyyətlə rəsmiləşdirilmir. Bu da "qara mühasibat"ın yaranmasına səbəb olan amillərdən birinə çevrilir".

**N.Cəfərlinin fikrincə, iqtisadiyyatın demək olar ki, bütün sahələrində bu problemlər var və bu problemlər nəticəsində həm vergi şəklində büdcə daxilolmalarının azalması müşahidə olunur, həm də korrupsiya üçün geniş imkanlar açılır.**

**"Qara mühasibat"la mübarizə üsullarına gəlincə, N.Cəfərli bildirdi ki, cəza üsulları ilə bunun qarşısını almaq mümkün deyil:** "Dünyanın keçdiyi təcrübə də bunu sübut edir ki, cəza və cərimələrlə "qara mühasibat"ın qarşısı alınmır. Azərbaycan hökuməti bunu ancaq əlində qamçı ilə düzəltməyə çalışır, bu isə əks nəticə verir. Azərbaycanda bunun təşviq metodu yoxdur. Əmək müqavilələrini normal formada bağlayan, vergilərini vaxtında verən özəl müəssisələrə, fiziki və hüquqi şəxslərə təşviq proqramlarından, vergi güzəştlərindən faydalanma imkanları yaradılsaydı, bu problemin həllində daha çox irəliyə getmək mümkün olardı. Cəzalarla, cərimələrlə, həbslərlə, digər cəza elementləri ilə bu problemi kökündən həll etmək mümkün deyil. Dünyanın keçdiyi yol buna əyani sübutdur. Dünyanın inkişaf etmiş ölkələri məhz güzəşt proqramları ilə bu problemi minimuma endiriblər. Kanadada, Avstraliyada, Yeni Zelandiyada, Sinqapurda, ümumiyyətlə, "qara mühasibat" sıfır səviyyəsindədir. Obrazlı desək, qamçının yanında bir kökə də verilməlidir ki, sahibkarları bu işə təşviq etsinlər. Azərbaycan hökuməti isə ancaq qamçıdan istifadə edir ki, bu da doğru yol deyil".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

**İllərdir ki, dəniz sahilinin hasarlanması və bu üzdən sadə xalqın çimərliklərdən məhrum olması mövzusu müzakirə edilir. Hər dəfə parlamentdə məsələ müzakirə olunandan sonra isə sahilyanı ərazilər daha çox hasarlanır. Məsələn, 2008-ci ilə qədər dəniz sahilindən yalnız 130 metr uzaqlıqda tikintiyə icazə verilirdi. Amma həmin ilin dekabrında Milli Məclisdə "Torpaq haqqında" Qanuna, Torpaq Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər nəticəsində sahilboyu zolaq 25-50 metrədək azaldıldı.**

# Eldar Quliyev geri qaytarılan qanun layihəsi haqda danışdı

## "O tini, bu tini dönürsən, 4-5 kilometr gedirsən, dənizə çatmırsan"


Eldar Quliyev

Parlamentin 2017-ci il 31 may tarixli iclasında deputat Eldar Quliyev qanuna daha bir dəyişikliyin edilməsi təşəbbüsü göstərib. Bu, dəyişiklik onun həmkarlarının kəskin etirazlarına səbəb olub. Deputat Qənirə Paşayeva deyib ki, dəniz sahillərinin qanunsuz hasarlanmasına son qoyulmalı, hər kəsin dəniz sahillərində rahat dincəlmə imkanları genişlənməlidir.

Q.Paşayeva deyib ki, bu dəyişikliyə əsasən, əvvəllər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi əhəmiyyətli dövlət obyektlərinin hasarları istisna olmaqla digər obyektlərə qadağalar vardısa, bu dəyişikliklə ictimai çimərliklərdən başqa digər qurumlara, şəxslərə, özəl çimərliklərə bu qadağa olmayacaq və bu, dəniz sahillərinin hasarlanması ilə bağlı onsuz da yaxşı olmayan vəziyyəti daha da pisləşdirə bilər. Spiker Oqtay Əsədov qeyd edib ki, həqiqətən də qanunda müəyyən boşluqlar var və dəyişikliyin gələn sessiyada müzakirəyə saxlandığını bildirib.

**Məsələ ilə bağlı "Yeni Müsavat" əməkdaşının suallarını cavablandıran deputat Eldar Quliyev hesab etmir ki, təklif etdiyi dəyişikliklər dənizin hasarlanmasına xidmət edir.** "Azərbaycanda özəl çimərliklər var, amma ictimai çimərliklər yoxdur. Turizmin inkişafı ilə əlaqədar olaraq təklif etmişik ki, dövlət çimərliklərinin adı ictimai çimərliklər qoyulsun. Çıxışlar bunun forması ilə bağlı oldu. Ona görə də spiker dedi ki, sonra məsələni aydınlaşdırarıq. "Turizm haqqında" Qanunda belə bir bənd var ki, ictimai çimərliklər yaradılsın. Həmin çimərliklər ictimai nəqliyyatda olduğu kimi pulsuzdur. Sovet dövründə bizlər normal şəkildə dəniz çimərliklərinə gedərdik, pulsuz-parasız çimib istirahət edib qayıdardıq. İstəyirik ki, ölkəyə gələn turistlər də sərbəst şəkildə, heç kimə pul ödəmədən dənizə gedib çimərlikdən istifadə edə bilsin".

**"Əhalinin dəniz sahilinə çatımlılığı məsələsi illərdir ki, problemdir. Təklif etdiyiniz dəyişiklik həmin problemi daha da artırmayacaq ki" sualına deputat belə cavab verib:** "Təklif etdiyimiz dəyişiklik ona xidmət edir ki, əhali hasarlanmış yerlərdən yox, digər ərazidən pul ödəmədən sərbəst şəkildə istifadə etsin. Bundan qabaq hasarlanma məsələsi vardı, orada məsafə qoyulmuşdu. Sonradan məsafə məsələsi qoyuldu. Əgər dövlət əhəmiyyətli obyekt deyilsə, hər 200 metrdən bir 6 metr sağda, 6 metr solda dənizə yol olmalıdır. Dəniz sahilləri özəlləşə bilməz, çünki dövlətindir. Çox təəssüf ki, hərə bir hasar çəkib orada, dənizə gedib çatmaq olmur. Dənizi görürük, amma gedib çata bilmirik. Biz dəniz kənarında böyümüşük, dənizə gedib gəlmək heç zaman indiki kimi problem olmayıb. Bu cəhətdən camaatın narazılığı var ki, hasarlanma başlayandan sonra dənizə gedib-gəlmək qeyri-mümkündür".

**Deputat həmkarlarının narazılığına gəlincə, müsahibimiz bunları dedi:** "Söhbət ondan gedir ki, əvvəllər dənizin 80 metrinə qədər hasar çəkmək qadağan olunurdu. Sonra bunu elədilər 30 metrə qədər. Yəni 30 metrə qədər sahil boş qalmalıdır, hasarlamaq olmaz. Təəssüf ki, əksər ərazilərdə bu qadağaya məhəl qoyan yoxdur. Az qala villaları dənizin içində tikiblər. Bizim millət vəkilləri dəfələrlə çıxışlarında deyiblər ki, dənizi hasarlamaq, çəpərləmək olmaz. Dənizin kənarı 40-50 metr boş qalmalıdır ki, vətəndaş orada sərbəst, maneəsiz istirahət edə bilsin. Amma qanunların qəbuluna qədər çox yerdə tikintilər aparılıb. Bəzi yerlərdə belə tikililər sökülüb, amma qalanları çoxdur, dənizə gedib-gəlmək olmur. Biz millət vəkilləri də vətəndaşlar kimi bu məsələdən narazıyıq. Dənizi hasarlamaq olmaz!"

**"Bəs Eldar Quliyev dəniz çimərliklərinə gedib çata bilirmi" sualına deputat maraqlı cavab verdi:** "Bağım Novxanı qəsəbəsinin ərazisindədir. Dənizin 1 kilometrliyindədir. Əvvəllər piyada 1 kilometr gedib dəniz çimərliyinə çatırdım. İndi isə o tini dönürsən, bu tini dönürsən, 4-5 kilometr gedirsən, dənizə çatmırsan. Hasardır hər tərəf. Mən qətiyyətlə deyirəm, dəniz kənarını hasarlamaq olmaz. Heç olmasa 1 kilometr məsafə olmalıdır ki, insanlar dənizə gedə bilsinlər. Hasarlayanların çoxu da bilmir ki, Xəzərin qabarma sikli var, 14 il geriyə çəkilir və müddət tamam olandan sonra əks proses başlayır. Gedin, Abşeron yarımadasını gəzin, su quyularına baxın. Quyular az qalır ki, daşır. Çünki hazırda Xəzərin qabarma dövrüdür. Sahilboyu hasarlanan əraziləri də bu səbəbdən su basır. Ağıllı adamlar dənizin sahilində tikinti aparmazlar. Çünki həmin ərazilərdə daimi rütubət var. Rütubət tikililəri dağıdır. Çox təəssüf ki, bizlər villamızdan çıxıb ayağımızı dənizə sallamağı xoşlayırıq".

**"Təklif olunan dəyişiklikdə ictimai çimərliklərin ölçüləri göstərilibmi" sualına deputatın cavabı belə oldu:** "Biz ölçüləri dəyişikliklərdə göstərmədik. Məsələn, biz yazarıq ki, ictimai çimərliyin dəniz sahili boyu uzunu 200-300 metr, sahildən əks tərəfə 50-100 metr olsun. Amma faktiki belə yer olmaya bilər. Çünki ola bilər ki, təklif olunan ərazidə dövlət əhəmiyyətli obyekt ola bilər və ya hansısa imkanlar böyük olan biri ərazini alıb hasarlayıb. Ona görə də ölçüləri göstərmədik. Biz parlamentin növbəti iclasında qanuna dəyişiklikləri keçirəcəyik".

❑ E.MƏMMƏDƏLİYEV

# Azad iqtisadi zonalar ərəb modelinə uyğun yaradılır

## İqtisadçı dövlət başçısının yeni sərəncamını şərh etdi

**Azərbaycanda azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsinə qərar verilib. Bununla bağlı dövlət başçısı İlham Əliyev mayın 31-də sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, xarici investisiyaların cəlb edilməsi iqtisadiyyatın daha da möhkəmlənməsinə, büdcə gəlirlərinin diversifikasiyası və əhalinin məşğulluğuna böyük töhfə verə bilər.**

Fərmana əsasən, azad iqtisadi zonaların yaradılmasının sürətləndirilməsi məqsədilə işçi qrup tərkibi yaradılıb və Milli Məclisin sədr müavini Valeh Ələsgərov onun sədri təyin edilib.

Azad ticarət zonasının yaradılmasının iqtisadiyyata nə kimi fayda verə biləcəyinə gəlincə, bu haqda "Yeni Müsavat"a **iqtisadçı ekspert Rəşad Həsənov** danışdı.

O bildirdi ki, bu layihə bir qədər geciksə də, faydalı bir addımdır: "Azad iqtisadi zonalar əsasən resurs ölkələrində iqtisadiyyatın şaxələndirilməsi məqsədilə tətbiq edilən mexanizmlərdən biri hesab olunur. Məqsəd daha liberal mühitin yaradıldığı bir zonaya xarici investisiyanın cəlb edilməsi, beləliklə də xarici investisiya ilə paralel olaraq xarici təcrübənin də ölkəyə gətirilməsi, eyni zamanda iqtisadiyyatın şaquli diversifikasiyasının təmin edilməsidir. Burada azad iqtisadi zonalar investorlar üçün çoxlu üstünlüklər təmin edirlər. Xüsusilə də son 60-70 ildə bu təcrübə dünyada geniş tətbiq edilməyə başlayıb. Hansı ölkələr səmimi formada iqtisadiyyatın liberallaşmasını, şaxələndirilməsini qarşıya məqsəd qoyublarsa, azad iqtisadi zonaların yaradılması bu ölkələrdə daha çox tətbiq olunan mexanizmlərdəndir".

**İqtisadçının sözlərinə görə, bu məsələdə Azərbaycan daha çox Birləşmiş Ərəb Əmirliklərinin modelinə üstünlük verir:** "Azərbaycanda azad iqtisadi zonaların idarə edilməsi də məhz bu ölkəyə oxşar layihəni idarə edən quruma həvalə edilib. Bu, Azərbaycan üçün lazımdır. Uzun müddətdir azad iqtisadi zonaların yaradılması ilə bağlı həm beynəlxalq maliyyə qurumlarının, həm də yerli ekspertlər tərəfindən hökumətə təkliflər verilsə də, hökumət bunu qəbul etmirdi. Bu istiqamətdə ciddi addımlar atılmırdı. Çünki neft vəsaitləri var idi, çoxlu pul gəlirdi. Hökumətin başı ona qarışdığı üçün iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı heç bir addım atılmadı. Nəticədə Azərbaycan iqtisadiyyatı 2014-cü ilin sonundakı vəziyyətlə üzləşməli oldu. Bundan sonra hökumətdə bu istiqamətdə müəyyən qədər iradənin ortaya qoyulduğu müşahidə edilir. Ölkənin iqtisadi reputasiyası, idarəetmə, hüququn aliliyi, məhkəmə sistemi ilə bağlı, investisiya təhlükəsizliyi ilə bağlı müəyyən problemlər var. Ortada çox ciddi suallar var. Məhz bu səbəbdən xarici investorlar xüsusi qanunun qəbul olunmasını tələb edirlər. Hazırda aidiyyəti qurumlar tərəfindən bu istiqamətdə iş aparılır".

**R. Həsənov vurğuladı ki, azad iqtisadi zona Azərbaycanda geniş tətbiq olunan mexanizmlərdən birinə çevrilməlidir:** "Sadəcə, Ələt Azad İqtisadi Zonası deyil, Azərbaycanın geostrateji mövqeyi nəzərə alınarsa, sərhəd ölkələrinin potensialı nəzərə alınarsa, sərhədlərə yaxın bölgələrdə azad iqtisadi zonaların yaradılması məqsədəuyğun olardı. Bu, həm sərhəd bölgələrinin regional inkişafını sürətləndirər, həm də yerli istehsalçılar üçün münbit bazar yaradar. Həmçinin bazarın rəqabətliliyini müəyyən qədər artırar və inhisarçı meylləri zəiflədər. Ümid edirəm ki, bu istiqamətdə işlər sürətləndiriləcək".

**Sahibkarların azad iqtisadi zonalardan necə faydalanacağına gəlincə, iqtisadçı vurğuladı ki, bu proses beynəlxalq təcrübəyə uyğun həyata keçiriləcək:** "Burada söhbət dövlət vəsaitləri hesabına infrastrukturun yaradılmasından, torpaq sahələrinin ayrılmasından, mülkiyyət hüququnun təmin edilməsindən gedir. Sonuncu bənd ayrıca qanunun qəbul olunmasından sonra daha aydın olacaq ki, bunun forması necə olacaq. Beynəlxalq praktikada daha çox 100 faizlik mülkiyyət hüququnun verilməsi üstünlük təşkil edir. Gömrük rüsumları və vergi güzəştlərinin edilməsi nəzərdə tutulur. Xüsusi zonada xüsusi şərtlər tətbiq olunacaq. Ölkədəki digər iqtisadi subyektlərə tətbiq olunan şərtlərin güzəştlərlə əvəz olunduğu bir sfera olacaq. Burada xarici kapitalın təşəkkül tapmasına ümid edirəm, bu istiqamətdə şərait yaranacaq. Eyni zamanda sahibkarlar buradakı imkanlardan istifadə etməklə, maya dəyəri ilə daha aşağı qiymətə məhsul istehsalını təşkil edib xarici bazarlarda rəqabət imkanı əldə edə bilərlər. Eyni zamanda dənizə və beynəlxalq transport qovşağına çıxışın əldə olunması daşınma xərclərinin də azalmasına, rəqabətli nəqliyyat vasitələrinin istifadə imkanının yaranmasına gətirib çıxara bilər. Bütün bu imkanlar iqtisadi prosesləri sürətləndirə bilər. Mən arzu edərdim ki, bu imkanlar yalnız hansısa iqtisadi zonalarda deyil, ölkə ərazisində bütün sahələrdə yaradılsın. Gələcəkdə bu istiqamətdə işlər aparılsın. Ölkə iqtisadiyyatının bütün sahələri biznes fəaliyyəti üçün əlverişli hala gətirilsin".

❑ Nərgiz LİFTİYEVA

**ABŞ prezidenti Donald Trampın 28 may-Respublika günü və XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransı ilə əlaqədar Azərbaycan prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktublarından sonra iki ölkə arasındakı münasibətlərə yeni nəfəs gəldiyi bildirilir. Son illərdə-Barak Obamanın zamanında Vaşinqton-Bakı münasibətlərində müşahidə olunan soyuqluğun artıq arxada qaldığı vurğulanır. Artıq bir neçə gündür ki, AzTV başda olmaqla, demək olar bütün təbliğat ruporları, hakimiyyət təmsilçiləri Obama dövrünü tənqid edir, Trampın o dövrün üstündən xətt çəkdiyini, başqa ölkələrin daxili işlərinə qarışmamaq siyasəti yürütdüyünü bildirirlər. Bu siyasətin Azərbaycanla münasibətləri yüksək səviyyəyə daşıya biləcəyi vurğulanır. Maraqlıdır ki, belə bir təbliğatın getdiyi vaxtda ABŞ səfiri Azərbaycandakı son həbslərlə bağlı bəyanat olacağı anonsunu verir.**

# Amerika-Azərbaycan münasibətlərində yeni mərhələ

## ABŞ səfiri "son həbslərlə bağlı bəyanat olacaq" deyir; iqtidar Trampa tərif təbliğatı aparır

Hakimiyyət təmsilçiləri isə iki ölkə arasında münasibətlərin artıq yeni dövrə qədəm qoymasını qeyd edirlər.

Məsələn, YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov APA-ya bildirib ki, Trampın Azərbaycan prezidentinə göndərdiyi məktublar ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələsidir: "Azərbaycan həmişə ABŞ-ın siyasətində dost ölkə kimi xüsusi rol oynayıb. Azərbaycan antiterror əməliyyatlarında fəal iştirak edib, Əfqanıstanda sülhyaratma missiyası ilə əlaqədar yüklərin daşınması üçün hava məkanını ABŞ-a açıq elan edib, Azərbaycan hərbçiləri İraqda və Kosovoda amerikalı hərbçilərlə sülhyaratma missiyasında iştirak edib. Bütün bunlar göstərir ki, Azərbaycan verdiyi vədlərə və xarici siyasət kursuna sadiqdir. Son bir dövrü çıxmaq şərtilə, həm Corc Buşun, həm Bill Klintonun, həm də öncəki prezidentlərin dövründə Azərbaycan-ABŞ münasibətləri yüksək səviyyədə olub. Arada bəzi məsələlər olurdu, bu da "Human Rights Watch", "Sərhədsiz Reportyorlar" kimi bir sıra QHT-lərin fəaliyyətindən qaynaqlanırdı. Həmin QHT-lər saxta məqsədləri naminə müxtəlif addımlar atır, erməni lobbisindən maliyyə alır, idarə heyətlərinin üzvləri ermənilərdən ibarətdir. Onlar ABŞ-Azərbaycan münasibətlərində ziyanverici addımlar atmağa çalışıblar. Yaxud Azərbaycanda işləmiş, çalışmış, sonra ABŞ-a qaçıb orada yaşayan və ya Azərbaycanda işləmiş bəzi ABŞ səfirləri də münasibətlərə ziyan vurmağa cəhdlər göstəriblər. Fakt isə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir və Azərbaycan müstəqil siyasətini davam etdirir. Azərbaycan hər bir dövlətlə necə bərabərhüquqlu münasibət qurubsa, bundan sonra da münasibətlər bu cür olmalıdır".



**Milli Məclisin birinci vitse-spikeri Ziyafət Əsgərov isə bildirib ki, ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə açılır:** "Biz, əlbəttə, çox istərdik ki, bu belə olsun və davam etsin. Şəxsən onun məktubları və bəyanatı mənim çox xoşuma gəldi. Hər halda, hamı, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün dövlətlər beynəlxalq hüququn bərabərhüquqlu subyektidir və kimsə kiməsə ağıl öyrətməsi, insan hüquqları, fikir azadlığı adı altında kiminsə daxili işinə qarışması düzgün siyasət deyil və artıq nəticə vermir. Bunu Tramp özü də görür. Dövlətlərlə, sadəcə, əməkdaşlıq və dostluq etmək lazımdır. Azərbaycan da o dövlətdir ki, onunla dostluq etmək olar".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, ABŞ prezidentlərinin hamısının siyasəti ilk növbədə Amerika xalqının maraqlarının təmin edilməsinə hesablanır:** "Tramp hakimiyyətə gələndən sonra isə bu siyasəti açıq şəkildə ABŞ-ın xarici siyasətinin prioriteti kimi müəyyən edərək bəyan edib ki, öncə Amerika xalqı, sonra başqa xalqlar. ABŞ-ın Azərbaycanla da bağlı maraqları var. Bu maraqlar ondan ibarətdir ki, Azərbaycan ABŞ-ın bu bölgədə həyata keçirdiyi siyasətdə aktiv rol almalıdır. Təsadüfi deyil ki, may ayında Tramp Səudiyyə Ərəbistanına sammitə gələrkən Azərbaycan prezidenti də oraya dəvət edildi. Amerika Azərbaycan hakimiyyəti ilə ona görə işləməkdə maraqlıdır ki, Azərbaycan hakimiyyəti onun bu bölgəyə yönəlik siyasətinə uyğun siyasət aparsın. Bu siyasətin də mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Rusiya və İranla münasibətləri ABŞ-ın istədiyi müstəvidə qursun. Əslində isə bu, Bakı üçün gözlənilməz bir situasiya yaradır. Azərbaycan iqtidarı bilir ki, Rusiya və İranla bağlı məsələlərdə ABŞ-ın siyasətini olduğu kimi həyata keçirə bilməz. Ona görə də bu siyasətin həyata keçirilməsində müəyyən improvizələr edilir. Bu zamanlar da Vaşinqtonun münasibətində soyuqluq müşahidə edilir. Bakı ABŞ-ın maraqlarına nə qədər sadiq qalacaqsa, Vaşinqton da ona münasibətdə bir o qədər tolerant olacaq. Azərbaycan iqtidarının təmsilçilərinin daxili auditoriya üçün təbliğatda nə deməsindən asılı olmayaraq ABŞ dünyanın supergücüdür, istənilən vaxtda Azərbaycanın və digər ölkələrin daxili işlərinə müdaxilə edə bilir. Eyni zamanda ABŞ ilk növbədə öz maraqlarını güdür. ABŞ öz siyasətini heç vaxt Azərbaycandakı iqtidarın və ya müxalifətin maraqlarını önə çıxarmaqla qurmaz. ABŞ öz maraqlarına uyğun siyasət aparır. Bu zaman Azərbaycandakı müxalifət və ya iqtidar nə dərəcədə ABŞ-ın maraqların xidmət edirsə, Vaşinqton da bir o qədər həmin qüvvələrə dəstək verir".

**S.Cəlaloğlu dedi ki, Azərbaycanda hazırda müxalifət kifayət qədər zəif, dağınıq vəziyyətdədir, demokratik dəyərlərdən uzaqlaşmış durumdadır:** "Bu cür müxalifət ABŞ-ın maraqlarına cavab vermir. Ona görə də son illər ABŞ Azərbaycan müxalifətinə heç bir dəstək vermir. Azərbaycan iqtidarına isə dəstək verilir. Ona görə ki, Azərbaycan iqtidarı rəsmi hakimiyyətə malik olan bir qüvvə kimi konkret resurslara, dövlət hakimiyyətinə malikdir. Nə zaman ki, iqtidar Amerikanın maraqlarına xidmət eləmir, o zaman Vaşinqtonun üzü dönür və müxalifətə göstərdiyi "diqqəti" hakimiyyətə də göstərir".

**ADP sədrinin fikrincə, bir tərəfdən Trampın ard-arda müsbət ruhlu məktubları, digər tərəfdən isə ABŞ səfirinin son həbslərlə bağlı Vaşinqtondan bəyanat gələcəyini bildirməsi o deməkdir ki, Azərbaycan iqtidarı ABŞ-ın bölgə ilə bağlı planlarının tamamilə həyata keçirilməsində net bir mövqedə deyil, tərəddüd var:** "Vaşinqton istəyir ki, Bakı Rusiyaya və İrana münasibətdə tamamilə ABŞ-ın istədiyi şəkildə siyasi xətt götürsün. Lakin belə bir xəttin götürülməsinin hansı problemlərə yol aça biləcəyini rəsmi Bakı bilir. Tərəddüd də bundan qaynaqlanır. Tramp isə mesajlar göndərir ki, arxayın olun, bu xətti yürütsəniz arxanızda dayanmışıq. Bakıdan ABŞ-ın istəyinə real praktiki müsbət cavablar olacağı halda Ağ Evdən müsbət münasibət davam edəcək. Əks halda, bir müddət sonra münasibətlər Tramdan əvvəlki dövrdəkinə qayıdacaq. Hazırkı siyasət Trampın xarici siyasətinin başlanğıcıdır. Trampın indi dünyadakı müxtəlif dövlətlərə, hakimiyyətlərə olan münasibəti bir neçə aydan sonra mümkündür ki, dəyişsin. Bu gün dost kimi baxdığı dövlətlərə arxa çevirə, düşmən kimi baxdığı dövlətlərə isə dost kimi yanaşmağa başlaya bilər. Azərbaycana münasibətdə də bir müddət sonra daha da yaxşılığa və ya pisliyə doğru dəyişikliklər ola bilər. O ki qaldı Trampın guya kənar ölkələrin daxili işlərinə qarışmaması barədə deyilənlərə, ABŞ istədiyi an istədiyi ölkənin daxili işlərinə qarışır. Azərbaycandan Rusiya və İran siyasətində ABŞ-ı dəstəkləmək istəyinin özü daxili işlərimizə qarışmaqdır. ABŞ, onun prezidenti hansı ölkə ilə əməkdaşlıq edirsə, bu o deməkdir ki, həmin ölkənin daxili işlərinə də qarışır. Odur ki, sevinməyə, özümüzü aldatmağa əsas yoxdur. Təkcə dolların qiymətini artırmaqla, Azərbaycan kimi ölkələrin daxilini silkələyə bilirlərsə, bunun özü daxili işlərə qarışmağın ən ciddi nümunəsidir".

❑ **Etibar SEYİDAĞA**



# Prezidentdən BP haqda xoş sözlər

## **İlham Əliyev:** "Onu "Əsrin müqaviləsi" adlandırmışdıq, indi mən əsrlərin müqaviləsindən danışıram"

**"Bu, həqiqətən də tarixi gündür. "Şahdəniz" müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan BP-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər var.**

Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla "Azəri-Çıraq-Günəşli" müqaviləsini imzaladı və BP sadəcə olaraq onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi ki, bu gün də müəyyən dəyişikliklə davam edir".

Bunu Prezident İlham Əliyev "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yolasalma mərasimindəki çıxışını ingilis dilində davam etdirərkən deyib.

**O bildirib ki, BP ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır:** "O vaxtdan indiyədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri "Şahdəniz"dir. Növbədə "Dayaz sular" və başqaları var. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz BP-yə etimad göstəririk. Əminəm ki, BP də Azərbaycana etimad göstərir. Əks halda, onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counzun dünən və bu gün qeyd etdiyi kimi, BP-nin fəaliyyət sferasında Azərbaycan bir nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar "Azəri-Çıraq-Günəşli" müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər.

Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə "Azəri-Çıraq-Günəşli"də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, "Şahdəniz"dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz "Azəri-Çırağı" "Əsrin müqaviləsi" adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, "Şahdəniz" tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR ilə əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram".

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017



# Jurnalist ovlamağın cəriməsi

Zamin HACI
zaminhaci@gmail.com

## Nərə-jurnalistlə dovşan-jurnalistin fərqi olmalıdır

**Ölkəmizin qüdrətli olmasına artıq kimsədə şübhə qalmadı. Biz istəsək, Belarusdan yəhudi bloggeri qışqırda-qışqırda tutub gətiririk, istəsək, Gürcüstan hüquq-mühafizə orqanlarını "quqqulu-mühafizə orqanlarına" çeviririk, xoşumuza gəlməyən jurnalisti çığırda-çığırda baqajda Bakıya yola salırıq. Lazım gəlsə, Qarabağı da alarıq. Ancaq o zaman ATƏT-in Minsk Qrupunda xeyli adam işsiz qalacaqdır. Məhz buna görə hələlik almırıq. Yoxsa almış kimiyik - Cocuq Mərcanlıda bu dəqiqə İpək Yolunun bir qolu tikilməkdədir.**

Qüdrət isə havadan yaranmır, bunun üçün dövlətin zəruri infrastrukturu olmalıdır. *(Deputat Qüdrət müəllimi nəzərdə tutmuram, o özü-özünü yaratmış və daim inkişaf etdirən görkəmli şəxsiyyətlərimizdən biridir. Qüdrət müəllimin təkcə soyadından Zahid Oruca 4 dənə familiya çıxar).* Misal üçün, bizdə icra hakimiyyəti, məhkəmə, qanunverici orqanlar hərəsi ayrıdır. Demokratik şəkildə bir-birinə nəzarət edirlər. "Azəriqaz"ın isə qaynar xətti var, müştərilərə həvəslə qulaq asırlar! Bu haqda dünən yazmışam, çox danışmaq istəmirəm.

Bax, həmin qanunverici orqanda ki, adına Milli Məclis deyirik, hər cür təbəqədən olan insanların mənafeyini qoruyan adamlar seçilib, yığılıbdır. Hökumətimiz qəsdən belə edibdir. Rusiyaya alverə gedən adamların deputatı ayrıdır, soğan əkənlərinki ayrı. Müəllimlərə işdən sonra dəlləklik öyrədən deputat da var, güləşçilərin qulağını cütü 20 manatdan sındıran deputat da. *(Bu indi bizdə təzə trenddir, cavan oğlanlar qəsdən qulaqlarını sındırır ki, güləşçiyə oxşasınlar, qızlar tərəfindən sevilsinlər. Milli Məclisin arxa tərəfində, rəhmətlik ANS-in Mirşahinin məktub yazdığı poçt hissəsinin yanında bunun üçün otaq ayrılıbdır).* Tarçalanların öz deputatı vardır, manısların özününkü. İtkin düşənlərin də deputatı var - hələ heç kim bilmir o deputat kimdir.

Yalnız biz jurnalist tayfasının öz deputatı yox idi, günümüz qara olmuşdu. Hər gün əleyhimizə qanun çıxırdı, hər axşam blokda bir yazarın ağzından güllə qoyurdular. Ta bağlanan qəzetlərin, yerində turp əkilən telekanalizasiyanın sayı-hesabı itmişdi. Elə qəzet var idi 525 dəfə açılıb-bağlanmışdı, eləsi vardı öyrəncəli olmuşdu, hökumətə yalvarırdı ki, sən o yanındakı qəşəng qanunun canı, bizi yenə bağla.

Nəhayət, axırıncı parlament seçkisi zamanı bu ayrı-seçkiliyə, irqçiliyə son qoyuldu, jurnalistlərin nümayəndəsi Milli Məclisə düşdü! Bu, Mətbuat Şurasının sədri, hörmətli Əflatun Amaşov olmuşdur! Əflatun müəllim Saatlı rayonu kimi mətbuat mərkəzindən, özü də rəhmətlik Cəlal əminin - mətbuatın 1 nömrəli dostunun yerindən deputat seçildi, bizi çox sevindirdi.

Srağagün Milli Məclis Cinayət Məcəlləsində bir çox cərimələrin məbləğini artırmaq qərarını səsə qoyaraq Əflatun müəllim olduqca taleyüklü məsələyə toxunaraq hamımızı şad etdi. *(Qabaqkı cümləni "sevindirdi" ilə bitirmişəmsə, təkrar yaza bilmərəm. Biz də dövlətçiliyimizə layiq, yenilikçi olmalıyıq. Məsələn, növbəti dəfə sevinmək məqamı gəlsə, artıq dombalaq aşmalıyıq. Siz də buna hazır olun, əziz oxucular).* Sitat: "Jurnalistin qanuni peşə fəaliyyətinə mane olma ilə bağlı cərimə 100-500 manatdır. Yeni layihədə isə bu rəqəm 500-1000 arası nəzərdə tutulub. Halbuki qanunsuz ov etmə üçün cərimə həddi 100-500 manatdan 2000-3000 manatadək qaldırılır. Yaxud balıq və digər su bioresurslarının qorunması qaydalarını pozmaya görə cərimənin 100-500 manatdan 3000-6000 manatadək qaldırılması təklif olunur. Hesab edirəm ki, biz cərimələri artırarkən məsələlərin ictimailik dərəcəsinə önəm verməliyik. İndiki halda jurnalistin qanuni peşə fəaliyyətinə mane olma daha böyük məsuliyyətdir, nəinki qanunsuz ov etmə. Jurnalistin peşə fəaliyyətinə maneçilik yaratma həm də mənəvi məsuliyyətdir".

Qısaca izah etsəm, Əflatun müəllim haqlı olaraq ölkəmizdə jurnalistin balıqdan ucuz sayıldığını qeyd edir. Çünki qanuna görə, jurnalisti qarmağa keçirməyin cəzası maksimum 1000 manatdırsa, osetrini qanunsuz ovlamaq 6000 manatdır! Belə yaramaz. Sabah bu camaat ev növbəsinə yazılacaq axı? Hərə bir dərədə 1000 manat verib bunları sillə-təpiyin altına salsa, dövlətçilik naminə istifadə zamanı tilova kim düşəcək? O cümlədən jurnalistin özü 500 manata ovlanırsa, ondan 3 min manatlıq ayı ovundan reportaj yazmaq tələbi alınmaq.

Düşünürəm ki, indiki halda jurnalistləri heç olmazsa qaban qədər hörmətli eləmək vacibdir. Ya da dovşan. Müəyyən vaxtda lisenziyasını al, get jurnalist ovla. Ancaq o da hər dəfə iki cütdən artıq olmamaq şərti ilə. Nəslini kəsmək olmaz.

# Hərbi nazirlərin üçlü Moskva görüşündə mühüm detal

**Dağlıq Qarabağ konflikti olduqca təhlükəli bir fazaya qədəm qoyub. Əksər siyasi və hərbi ekspertlər də son vaxtlar xüsusi olaraq vurğulayır ki, problemin həllində tezliklə ciddi dönüşə nail olunmasa, müharibə qaçılmaz olacaq. Müharibə isə təkcə Azərbaycan və Ermənistan arasında getməyəcək. Ona bir sıra regional və qlobal güclər də qoşulmalı olacaq. Başqa sözlə, münaqişəyə cəlb olunmuş bütün dövlətlərin regiondakı köklü maraqları böyük sınağa çəkiləcək.**




# Kremlin Qarabağ dilemması - İrəvan əraziləri qaytaracaq

## Rusiya konfliktin həllində tezliklə irəliləyişə nail olmasa, bunu onun yerinə başqa güc(lər) edəcək; Moskva İrəvanı silahlandırmaqla öz vəziyyətini çətinləşdirib, çünki...

Dağlıq Qarabağ problemi isə onun əsas memarı olan Rusiya üçün getdikcə məxsusi başağrısına çevrilməkdədir. Müşahidələr göstərir ki, şimal qonşumuz artıq ciddi bir Qarabağ dilemması ilə üzləşib və bu dilemma aybaay çətinləşməkdədir. Rusiyanın Qarabağ dilemması isə həm də Bakı ilə İrəvan arasında olan siyasi dilemmadır, siyasi seçim məsələsidir. Moskva üçün problem ondadır ki, o, nə Ermənistanı, nə də Azərbaycanı itirmək istəyir və hər ikisini öz təsir zonasında saxlamağa çalışır.

Lakin zaman ötdükcə bunu reallaşdırmaq, Bakı ilə İrəvan arasında "balansı" və mövcud status-kvonu saxlamaq müşkülə çevrilir. Bu da o anlama gəlir ki, Dağlıq Qarabağ düyünü yaxın zamanlarda mütləq açılmalı, üstəlik, məhz Kreml bu prosesə real töhfə verməlidir. Çünki konfliktin həllinə onun təsir rıçaqları hələ ki heç bir başqa vasitəçi dövlətdə yoxdur. Əks halda, Qarabağ ətrafında situasiya Rusiyanın iradəsi altında olmayan məcrada inkişaf tapa, Moskva problemə olan-qalan təsir imkanlarından da məhrum ola, münaqişənin həlli başqa güclərin patronajlığı altına keçə bilər.

***

Heç şübhəsiz, bunu Moskva strateqləri də görür, bu yöndə təhlillər, hesablamalar aparırlar. Söhbət öncəliklə də regionda get-gedə daha da güclənməkdə olan Qərb (NATO) amilindən, bu amilin tərkib hissəsi kimi Türkiyə faktorundan gedir. Kreml sözsüz ki, bu qəbildən olan gelişmələrin fərqindədir, onları diqqətlə izləyir və narahatdır.

Təsadüfi deyil ki, bu yaxınlarda Batumidə Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin üçlü görüşü Moskvada əməllicə qıcıq yaratdı. Narahatlıq isə əlbəttə ki, Ankara-Bakı-Tiflis üçlü formatının tək hərbi sahə üzrə deyil, bütövlükdə digər sahələrdə də ilbəil güclənməsindən dolayıdır. Yeri gəlmişkən, bu ay üç qonşu ölkənin birgə hərbi təlimləri də planlaşdırılır.

***

Maraqlıdır ki, Batumi görüşündən bir neçə gün sonra Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov MDB-nin Müdafiə Nazirləri Şurasının Moskva şəhərində keçirilən növbəti iclasına qatıldı. Görüşdən sonra isə Rusiya, Azərbaycan və Ermənistan müdafiə nazirlərinin xüsusi görüşü keçirildi. Siyasi təhlilçilər bu iki hadisə arasında müəyyən əlaqə görməklə yanaşı, diqqəti həm də Qarabağ məsələsində şimal qonşumuzun üzləşdiyi dilemmaya yönəldirlər.

**"Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı tərəfdir. Çünki Azərbaycanla Ermənistanla arasında müharibə yenidən qızışsa, bu ilk növbədə Rusiyanın ziyanına olacaq. Ona görə də rəsmi Moskva tərəflərə müxtəlif mesajlar göndərir və bu məsələnin həlli üçün addımlar atır". Bunu Rusiyanın təşəbbüsü ilə Azərbaycan və Ermənistan müdafiə nazirlərinin Moskvada baş tutan görüşünü şərh edən "Baku International Policy and Security Network" ekspert qrupunun rəhbəri, təhlükəsizlik və beynəlxalq məsələlər üzrə ekspert, fəlsəfə doktoru Elxan Ələsgərov bildirib (milli.az).**

**Lakin onun sözlərinə görə, Ermənistan hər şeyini verib Rusiya ilə ağlasığmaz ittifaq yaratmaqla mövcud status-kvonu saxlamaq və münaqişənin həllinin uzanmasını istəyir.** "Amma bu məsələ gec-tez həll olunmalıdır. Bunun hamı başa düşür, Ermənistandan başqa", - deyə ekspert qeyd edib. Onun fikrincə, Moskvada keçirilən görüşdə bir neçə məsələ müzakirə olunub.

**Ekspert onların arasında sensasion hesab edilə biləcək ehtimalın reallaşa biləcəyini də istisna etmir:** "Ötən ilin aprel döyüşlərindən sonra Rusiya münaqişənin həlli ilə bağlı bir neçə təşəbbüslə çıxış edib. Belə ki, Azərbaycan və Ermənistan prezidentlərinin əvvəlcə Vyanada, sonra Sankt-Peterburqda görüşləri təşkil edilib. Azərbaycan və Ermənistanın müdafiə nazirlərinin indiki Moskva görüşü isə ilk növbədə cəbhə bölgəsində hərbi toqquşmaların qarşısını almağa yönəldilib. İkincisi, məncə, görüşün nəticələrinə əsasən, Ermənistan ordusu işğal etdiyi Azərbaycan ərazilərindəki hansısa mövqelərdən geri çəkilə və bəzi əraziləri geri qaytara bilər. Çünki bu, Azərbaycanın istəyi, tələbi və sülhə aparan yeganə yoldur".

**Ekspert onu da qeyd edib ki, Rusiyanın "İsgəndər" raketlərini Ermənistana verməsindən sonra İrəvan işğalçı siyasətində və işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmamaqda daha israrlı mövqe tutub.** "Məhz bundan sonra Ermənistanın hərbi-siyasi rəhbərləri bir düyməni basmaqla Bakını hər an vura biləcəkləri ilə hədələməyə başladılar" - o əlavə edib.

***

Məsələdə Kremli çətinə salan amillərdən biri də elə Rusiyanın işğalçını silahlandırmaqda davam eləməsi, bununla da faktiki şəkildə özünün Qarabağ dilemmasını qəlizləşdirməsidir. Nədən ki, məhz "İsgəndər" tipli raketlər və döyüş sistemləri hesabına Ermənistan daha təxribatçı mövqe tutmağa başlayıb, ipə-sapa yatmır, hətta öz ağası Rusiyanın üzünə ağ olmağa özündə cürət tapır, "Lavrov planı"ndan, Madrid prinsiplərindən rəsmən imtina edir. Necə deyərlər, Kreml getdikcə öz "ərköyün övladı"nın daha böyük şıltaqlığı ilə üz-üzə qalmaqdadır.

Odur ki, tərəflərə silah verməkdən daha çox indi Rusiya üçün başqa prioritet aktuallıq kəsb edir: necə etməli ki, konfliktin həllində tezliklə irəliləyişə nail olub müharibə ehtimalını kəskin azaltmaq və bu zaman Azərbaycan və Ermənistanı öz yanında saxlamaq? Məhz bu sualın cavabından asılı olaraq da Moskvanın yaxın dövrü üçün Güney Qafqaza yönəlik strategiyasının mahiyyəti bəlli olacaq. Söhbət həm də Rusiyanın qardaş Türkiyə ilə birgə nə dərəcədə regiona yönəlik uzlaşdırılmış siyasət yürüdəcəyindən gedir.

❑ Siyasət şöbəsi

Yeni MÜSAVAT
N 117 (5731) 2 iyun 2017

# Azərbaycan Putinin tədbirinə nazir göndərmədi

**İyunun 1-də işə başlayan Sankt-Peterburq iqtisadi forumuna Azərbaycan ötən ildən fərqli olaraq yalnız bir şirkət göndərdi; narazılığın yaranmasına səbəb olan ÜAK-la bağlı yeni gəlişmə var: hakim təşkilat rəhbərliyini "vaxtı olmaması" səbəbindən qəbul etmir**

**Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatının ləğv olunmasından sonra rəsmi Bakı Moskvanın bu addımına soyuqqanlı münasibət göstərməkdə davam edir. "Yeni Müsavat" qəzeti yazır ki, Rusiya rəsmiləri də israrla bu qərarın arxasında hansısa siyasi niyyətlərin dayanmadığını bəyan edir.**

ÜAK-ın ləğvi ilə bağlı hakimiyyət bugünlərdə dövlət televiziyası vasitəsilə əslində sərt cavablar verib. Bildirilib ki, Azərbaycanın transmilli layihələri, eləcə də Dağlıq Qarabağ məsələsində prezident İlham Əliyevin prinsipial mövqeyi Rusiyanın bəzi dairələrini qıcıqlandırır. Anti-Azərbaycan siyasətin arxasında xarici işlər naziri Sergey Lavrovun dayana biləcəyinə işarələr edilib.

Xatırladaq ki, mayın 15-də Rusiya Ali Məhkəməsi Ədliyyə Nazirliyinin iddiasını təmin edərək, ÜAK-ın qeydiyyatının ləğv olunması barədə qərar verib. Ədliyyə Nazirliyi ÜAK-ın fəaliyyətində Rusiya Federasiyasının qanunvericiliyinin pozulduğunu iddia edir. ÜAK-ın prezidenti Fazil Qurbanov qərarı ədalətsiz adlandırıb. O, apelyasiya şikayəti verəcəklərini bildirib.

**İyunun 1-də məlum olub ki, ÜAK-ın qeydiyyatı ilə bağlı apelyasiya şikayəti verilməyib. Modern.az-a açıqlamasında ÜAK-ın icraçı katibi İlqar Hacıyev deyib ki, təşkilatın qeydiyyat məsələsinin həll olunacağına ümid edirlər.** "Ona görə də veriləcək qərarı gözləyirik. Qərar nə olacaqsa, ona uyğun da apelyasiya şikayəti verəcəyik. Hələlik apelyasiya şikayəti verməkdən imtina etmişik".

**İcraçı katibin sözlərinə görə, bu həftə ərzində ÜAK-la bağlı qərar verilə bilər.** "Sadəcə, neçə gündür ki, hakimlə təmasa keçmək mümkün olmur. Onun işləri çox olduğundan nə qərar verəcəyini də təxmin edə bilmirik. Ola bilsin ki, bu həftə ərzində ÜAK-la bağlı qərar verilsin. Gözləyirik".

İcra katibinin "neçə gündür ki, hakimlə təmasa keçmək mümkün olmur" sözləri Rusiyanın mövqeyində hər hansı dəyişikliyin olmadığını göstərir.

Bu isə rəsmi Bakı ilə ÜAK-ın taleyi ilə bağlı heç bir müsbət addım atmayan Moskva arasında da münasibətlərdə soyuqluğun davam etdiyini göstərir.

Bunu sübut edəcək daha bir mühüm fakt da var. Məlumdur ki, iyunun 1-də Sankt-Peterburqda XXI Peterburq Beynəlxalq İqtisadi Forumu başlayıb. Rusiya KİV-ləri xəbər verir ki, sessiya zamanı dünya iqtisadi trendləri, beynəlxalq gündəliyin əsas məsələləri müzakirə ediləcək. Forum çərçivəsində 100-dən çox tədbir keçiriləcək. Forumun işgüzar proqramı Rusiya, Avropa, Asiya, Amerika Birləşmiş Ştatları, Şimali və Latın Amerikasının 200-dən çox aparıcı mütəxəssislərinin iştirakı ilə hazırlanmışdır. Forumun işində Rusiya prezidenti Vladimir Putin, baş nazir Dmitri Medvedyev, nazirlər və Rusiya hökumətinin üzvləri iştirak edir. Foruma təxminən 12 min nəfər, o cümlədən 39 xarici ölkənin nazirləri və 870 şirkət rəhbərləri iştirak edir. Foruma BMT-nin baş katibi də gəlib.



Ötən il forumda Azərbaycan nümayəndə heyəti böyük tərkibdə iştirak etmişdi. Nümayəndə heyətinə iqtisadiyyat naziri Şahin Mustafayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslər daxil idi. Amma bu dəfə Azərbaycan üçün də əhəmiyyətli olan bir foruma yalnız SOCAR-ın nümayəndə heyəti qatılıb. Rusiya KİV-lərində bu barədə xəbərlər yoxdur, SOCAR-ın forumda təmsilçiliyini report.az saytı yayıb. Azərbaycan nümayəndə heyətinin 1997-ci ildən keçirilən Beynəlxalq İqtisadi Forumda təmsilçiliyinin məhz bu il yalnız bir şirkətin nümayəndə heyəti ilə məhdudlaşdırılması diqqət çəkir. Məsələn, Rusiya diplomatlarının Moldovadan qovulmasından sonra iki ölkə arasında ciddi narazılıq yaranmasına baxmayaraq, bu ölkənin prezidenti İqor Dodon Peterburqa gedib.

Prezident İlham Əliyev Peterburq İqtisadi Forumunda bir neçə dəfə iştirak edib. Rusiya tərəfi həm Ermənistanın sabiq, həm də indiki prezidenti ilə Azərbaycan dövlət başçısının görüşlərini bu forum vaxtı keçirib. Elə ötən il də iki ölkə prezidentləri arasında görüş iyunun 21-də Sankt-Peterburq forumundan dərhal sonra keçirilmişdi. Prezident İlham Əliyev Sankt- Peterburq forumunun uğurla keçirilməsi münasibətilə Vladimir Putini təbrik etmişdi. Prezident demişdi ki, Rusiyanın patronajlıq etdiyi forum bu illər ərzində qlobal siyasət və iqtisadiyyat məsələlərinin müzakirəsi və həlli üçün ən mühüm məkanlardan birinə çevrilib. Azərbaycan forumun işində fəal iştirak edir.

Bu il forumda təmsilçiliyin yalnız bir şirkət səviyyəsində məhdudlaşdırılması, nazir belə göndərilməməsi mümkündür ki, rəsmi Bakının narazılığının ifadəsi olsun. Azərbaycan iqtidarı bu cür təvrü sərgiləməklə, özünün haqlı mövqeyini və haqlı narazılığını ən yüksək səviyyə üçün nümayiş etdirmiş olur. Çünki Putin bu foruma ciddi əhəmiyyət verir və iştirakçı ölkələrin ən yuxarı səviyyədə təmsilçiliyə çalışır. Bu səbəbdən də mesaj artıq Putinə ünvanlanmış sayılacaq.

❑ **"YM"**

# AŞ PA-nın Azərbaycana qarşı rüşvət iddiası-sərt reaksiyalar

**Avropanın insan haqları üzrə ən yüksək müşahidəçisi olan Avropa Şurası Parlament Assambleyası (AŞ PA) bəzi üzvlərinin Azərbaycan hökumətinin göstərişlərini yerinə yetirməsindən şübhələnərək istintaqa başlayıb. İstintaqı insan haqları məsələləri üzrə ixtisaslaşan və tanınmış üç hakim aparır.**

Onlar AŞ PA üzvlərinin Azərbaycan nümayəndə heyəti üzvlərindən rüşvət alması barədə iddiaları yoxlamalıdırlar. Azərbaycanın 2013-cü ildə AŞ PA qərarına təsir göstərməsi barədə şübhələr var.

2013-cü ildə assambleya almaniyalı parlamentar Kristofer Ştrasserin ölkədə insan haqlarının pozulması və azərbaycanlı "siyasi məhbusların" vəziyyəti barədə hazırladığı hesabatı rədd edib.

Bu şübhələrə əsasən assambleya üzvlərindən birinə bu hesabatın keçməməsi üçün 2,5 milyon dollardan çox vəsait ödəndiyi iddia edilir.

Azərbaycan isə ünvanına səsləndirilən ittihamları rədd edir. Yeni təyin edilmiş beynəlxalq insan haqları vəkilləri AŞ PA-da korrupsiya ittihamlarını araşdıracaq və bu ilin sonunda istintaq nəticələrini dərc edəcəklər.



**Siyavuş Novruzov:** "Toyuq oğrularından siyahılar düzəldirlər"



**Fazil Mustafa:** "Bu kampaniyanın özünün arxasında böyük rüşvət məsələsi durur"

Onlar korrupsiyaya bulaşmış istənilən AŞ PA üzvünə qarşı ölçü götürməyə göstəriş verə bilərlər ("BBC-Azərbaycan").

**AŞ PA-nın bu addımı ölkəmizdə ciddi etirazla qarşılanıb. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a açıqlamasında AŞ PA-nı qərəzli olmaqda suçladı:** "İnsan hüquqlarından danışanların miqrantlarla bağlı hansı addımları atdıqları, onların başına hansı oyunları gətirdikləri göz önündədir. Miqrantları dəmir torların arxasında saxlayır, onlara çörək atırlar. Onların demokratiyası budur. Sərbəst toplaşma azadlığını həmin Avropa dövlətləri necə pozdular, hamımız yaxşı bilirik. İtdən tutmuş ata qədər insanların üzərinə yeridilir, gözyaşardıcı qaz verilir, ən qəddar formada insanlarla davranılır. Onların Azərbaycanın rüşvət verməsi ilə bağlı qaldırdıqları məsələ isə gülüncdür. Siyasi məhbus siyahısını hazırlayanlar aidiyyəti olmayan şəxsləri ora salırlar, toyuq oğrularından siyahılar düzəldirlər. Yaxınlarından pul alıb siyasi məhbus siyahılarına şəxsləri salırlar. Bu siyahıları da AŞ PA tipli qurumlara göndərirlər. Bunlar hərtərəfli şəkildə ifşa olundular. Sizin qəzetdə də dəfələrlə konkret faktlarla yazılar dərc olundu ki, siyasi mühacir adı altında pul verib şəxslər necə sənədlər alırlar, AXCP-dən və başqa-başqa təşkilatlardan. QHT-lər var ki, adlarını insan hüquqları təşkilatı qoyub, belə dələduz işlərlə məşğuldurlar. Bugünlərdə onların necə ifşa olunduqlarını hamımız görürük. Hər şey ardıcıl şəkildə ortaya çıxır. Azərbaycanın haqq işi davam edir. Ölkəmiz daim ədalətli mövqedən çıxış edir. Hansı ölkə Azərbaycanla bağlı fikir söyləyirsə, öz daxilindəki demokratiya, insan haqlarını nümunə gətirsin. Görmüşük ki, Ermənistanda baş verən qanunsuzluqları onlar daim görməməzliyə vurur, seçki saxtakarlıqlarına göz yumurlar. Ədalətdən danışmağa onların heç bir haqqı yoxdur. Yaxınlarda Türkiyəni monitorinqə götürməklə bağlı sırf siyasi qərar qəbul etdilər. Hər kəs yaxşı bilir ki, onlar sırf Azərbaycana təsir etmək, erməni lobbisindən pul alıb ölkəmizin adını müxtəlif siyahılara salmaq üçün bu cür oyunlar oynayırlar".

**AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bildirdi ki, ölkəmizi töhmət altında saxlamaq üçün belə versiya irəli sürülüb:** "Erməni, yunan və başqa deputatların birgə fəaliyyəti ilə bu iddia ortaya atılıb. Ortada heç bir sübut yoxdur. Anlaşılan odur ki, bu, məqsədyönlü kampaniyadır. Bu kampaniyanı da aparmaqda məqsəd Azərbaycanla bağlı məsələni gündəmdə saxlamaqdır. Heç bir ciddi əsası olmayan iddiadır. Bəlkə də bu kampaniyanın özünün arxasında da böyük rüşvət məsələsi durur. Strasser və başqalarının burada aktiv iştirak etməsi, bir sıra hallarda ermənilərlə məsləhətləşib çıxışlar etmələri onu göstərir ki, burada söhbət birbaşa Ermənistan tərəfdən şirnikləşdirilib prosesə qoşulan insanlardan gedir. İki-üç ay gündəmdə saxlanılacaq məsələ olacaq və bu istiqamətdə müəyyən addımların atılmasına cəhdlər olacaq. Azərbaycan tərəfi şübhəsiz ki, orada ölkə əleyhinə hər hansı bir fəaliyyətin olmasına, qərarların qəbuluna mane olmağa çalışır. Amma bunu rüşvətlə etməsi barədə fikirlər gülünc bir şeydir. Əslində işin mahiyyətini bilənlər bunu ciddi qəbul etmirlər. AŞ PA-nın özü bizim üçün artıq ciddi təhlükəyə çevrilir. Digər Avropa qurumları da belədir. ATƏT guya bizim üçün təhlükə deyil ki? Torpağımızın işğalını ermənilər üçün məqbul sayan, onları dəstəkləyən qurum olduğu göz önündədir. Bu məsələdə onların rəylərinin necə olması bizi maraqlandırmamalıdır. Biz demokratik dəyərlərə söykənən dövlət quruculuğu prosesinə diqqət ayırmalıyıq. AŞ PA-da səslənən fikirlərin əksəriyyətinin ciddi bir əsası yoxdur. Biz artıq heyət olaraq orada iştirak etmirik, bu, uzun müddətdir belədir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017



# Bazar davası aparan çetelər vadisi

Xalid KAZIMLI

**Qarabağ münaqişəsinə dair xəbərlərin 200, donunun ətəyini külək qaldıran müğənni xanımın "vaqiə"sinə dair xəbərlərin 20 min dəfə oxunduğu ölkədə artıq sensasion məlumat deyə bir şey qalmayıb.**

Bu, artıq qaydadır, əvvəl-əvvəl hansısa bir mövzu ətrafında ajiotaj yaranır, hamı elliklə həmin mövzuya qapılır, oxuyur, danışır, müzakirə edir, amma bir neçə gündən sonra hər şey yaddan çıxır, ortalığa başqa müzakirə mövzusu girir və biz maraqlanmırıq ki, iki-üç gün öncə vur-həşir müzakirə etdiyimiz söhbətin axırı necə oldu, top kimin sahəsində qaldı, adı o boyda cinayətdə çəkilənləri ortaya çəkən oldumu, olmadımı.

Məsələn, il yarım əvvəl hamı ləğv olunmuş MTN-in işdən götürülən və həbs olunan generallarının, Rabitə Nazirliyinin eyni aqibətlə üzləşən məsul şəxslərinin əməllərinə dair açıqlanan rəsmi açıqlamaları oxuyur, müzakirə edirdi.

Hazırda onların məhkəməsi gedir, generalların və idarə rəsilərinin törətdikləri qanunsuz əməllər birbəbir açılır, ortaya qan donduran təfərrüatlar çıxır, ancaq bu işə ictimai maraq hansısa müğənni xanımı "saxlayan" evli kişinin adının açıqlanacağına dair anons-xəbər qədər deyil.

Halbuki sözügedən məhkəmələrdə açıqlanan detallar hamını şoka salmalıydı.İnsanlar dəhşətə gəlməliydilər ki, bir neçə il öncə onlar necə bir təhlükənin altında yaşayır, işləyirmişlər.

Bu xüsusda insanlara təskinlik verən yeganə nüans odur ki, onlar vəzifə və pul-para yiyəsi olmayıblar, ona görə də MTN generallarının hədəfinə çevrilməyiblər. "Eh, bizimlə kimin nə işi ola bilər, sadə, kasıb adamlarıq" - ən yayğın düşüncə budur.

Bununla belə, az qala hər bir şəxsin uzaq-yaxın qohumu, dost-tanışı MTN-dəki reket çetesinin dəyirmanından keçib.

Məhkəmədə açıqlanan təfərrüatlardan məlum olur ki, MTN banditlərinin zirzəmiyə salıb işgəncə verdikləri, sonradan külli müqdrda xərac qopardıqları bir çox adamlar da süddən çıxmış ağ qaşıq olmayıblar.

Məsələn, şəhərin məşhur bazarlardan birini öz sahibindən olduqca ucuz qiymətə, bir dükanın dəyərinə alan şəxslər, heç demə, bunu yüksək vəzifəli adamlara güvənərək, adam oğurluğu kimi ağır cinayətə qol qoyaraq həyata keçiriblər. Sonradan onlar Akif Çovdarovun qurbanına çevriliblər, ancaq Çovdarov bazar sahibinin qardaşını və qohumlarını aparıb hansısa şadlıq evinin zirzəmisinə salmayıb, dövlətin, millətin təhlükəsizliyinin keşiyində dayanan, dayanmalı olan qüdrətli orqanın təcridxanasına salıb və istədiyini əldə edib.

Bu nəyin göstəricisidir? Bu, onu göstərir ki, ölkədə vəzifəli, pullu, qoluzorlu adamların arasında müharibə gedirmiş. Ayrı-ayrı yüksək vəzifəli adamlara güvənən şəxslər paytaxtı, ölkəni öz nüfuz dairələri arasında bölür, ticarət, xidmət, iaşə müəssisələrini zor yoluyla mənimsəməyə çalışır, sərvət toplamaq yarışı aparır, daha yüksək mənsəblər əldə etmək, daha güclü qruplar, ittifaqlar yaratmaq uğrunda boğuşurmuşlar.

Ən qəribəsi o idi ki, bir neçə il öncəyə qədər bu adamların hamısı dövlətçilikdən danışırdı. Onlar özlərinin var-dövlət davasını bu cür, dövlətçilik haqqında yalan-palan nağıllarla pərdələyirdilər.

Bu tipli acgöz, tamahkar, zorakı, satqın, xəyanətkar adamların üzdə, yuxarı başda olduğu ölkədə yaranmış durum bundan artıq olmaz.

Bəzən adama elə gəlir ki, bu cür insanları xüsusi testlərdən, ələk-xəlbirdən keçirərək bir yerə, bir komandaya toplayırlar. Ancaq elə deyil. Bu cür adamlar çoxdur və istənilən hakimiyyətə yarınmağa, onun daxilinə pərçim olunmağa hazır və qadirdirlər.

Kim deyirsə ki, onlar Ayaz Mütəllibovun komandasında yer ala bilməzdilər, səhv deyir, axtarsaq, görərik ki, bu cür nadürüstlərin çoxu elə karyera pillələrinə qədəmlərini Mütəllibovun dönəmində atıblar. Onlar hətta xalq hərəkatı dalğasında quurlan və xalqın içindən çıxan kadrlardan ibarət olan Elçibəy iqtidarı dönəmində mövcudluqlarını qoruyub saxlamışlar.

Bu tip məmurlar istənilən mühitdə yaşamaq, artmaq, şaxələnmək qabiliyyətinə malikdirlər, daha əlverişli mühitlərdə isə əsl cəngəllik yarada, öz qanunlarını tətbiq edə bilirlər. Onların üzərində vaxtında və vaxtaşırı budama işləri aparılmayanda dövlət və millətüçün ciddi təhlükə mənbəyinə çevrilirlər.

Ən yaxşısı odur ki, bu adamlar heç vaxt əlverişli mühit tapa bilməsinlər və həmişə nəzarətdə olsunlar. Bu isə yalnız xalqın aktivliyindən, prinsipiallığından asılıdır. Siyasətlə, iqtisadiyyatla yox, şou-bizneslə daha çox maraqlanan xalqın nəsibi bundan artıq olmaz.

# Azərbaycanda çoxuşaqlı analar azalıb - əsas səbəb

## Əhməd Qəşəmoğlu: "Əsas odur ki, uşaqlar keyfiyyətli böyüsün..."

**Azərbaycanda çoxuşaqlı anaların sayı azalıb. Sovet dönəmində 5 uşaqlı analar çoxuşaqlı sayılmır, buna normal baxırdılar. O dövrlərdə ən azı 6-7 uşağı olan analara çoxuşaqlı ana kimi baxırdılar. İndi isə 3 uşağı olanlara artıq çoxuşaqlı ana kimi baxırıq.**



Təəssüf ki, indi hər kəs 1, maksimum 2 uşaqla kifayətlənir. Bunun da səbəbi ailələrin iqtisadi vəziyyəti, imtiyazların verilməməsidir. Sovet dövründə çoxuşaqlı analara müxtəlif imtiyazlar, orden verilir, tez təqaüdə çıxarılırdı. İndi isə belə analara heç bir imtiyazlar, stimul verilmir. Hazırda Azərbaycanda olmasa da, bir çox ölkələrdə çoxuşaqlı ailələrin xüsusi statusu, əlavə güzəşti və imtiyazları var.

Fransada hələ 1921-ci ildən "Böyük ailə" adlı dövlət proqramı fəaliyyət göstərir. Həmin proqrama əsasən, dövlət siyasəti çərçivəsində çoxuşaqlı ailələrə subsidiyalar və imtiyazlar verilir. Çoxuşaqlı ailələrə həmçinin vergi imtiyazları da təqdim olunur. Hər doğulan uşaq vergilərin azalması deməkdir. Beləliklə, əgər ailədə 4 uşaq varsa, həmin ailə praktik olaraq vergi ödəmir. Avropada ən çox doğum Fransanın payına düşür. İsveçdə çoxuşaqlı ailələrə proqressiv müavinətlər verilir və bu müavinətlər hər yeni doğulmuş uşağa görə artır. Əlavə olaraq yaşayış üçün ev haqqı, məktəbəqədər müəssisələrin xərci dövlət tərəfindən ödənilir, hətta ərzaq üçün xüsusi talonlar verilir. Burada natamam, xüsusilə də qadın tərəfindən idarə olunan ailələrə bir sıra əlavə güzəştlər də təqdim olunur.

Finlandiyada isə çoxuşaqlı ailələrə müxtəlif şəkillərdə sosial müavinətlər verilir. Bunlardan biri "yeni doğulmuşlar üçün paket"dir. Bu paket bütün qadınlara şamil edilir və uşağın 1 yaşına qədər hər bir ehtiyacı ödənilir. Paketin məbləği 1 neçə yüz avro ilə ölçülür. Uşaqlar böyüdükcə, onların digər ehtiyacları da nəzərə alınaraq müəyyən güzəştlər verilir.

Polşada hazırda xüsusi meyar qəbul olunub. Əgər çoxuşaqlı ailələrdə adambaşına düşən gəlir 125$-dan azdırsa, onda həmin ailəyə imtiyazlar verilir. Əgər ailədə əlil uşaq varsa, valideynlərdən biri işləmirsə, həmin uşağa qulluq göstərməklə məşğul olurlarsa, onda həmin məbləğ 2 dəfə çox verilir.

Çexiyada isə hər doğulan uşağa görə qadının təqaüd yaşı azaldılır. Almaniyada "Gəlir vergisi haqqında" və "Uşaq müavinətləri" haqqında qanunlar qəbul olunub. 2 yaşına qədər hər uşaq üçün anaya ayda 300 avro verilir. Bundan əlavə, əgər ailədə 3 və daha çox uşaq varsa hər uşağa 179 avro verilir. Bu müavinət 27 yaşadək valideynləri ilə yaşayan və işləməyən şəxslərə verilir. Almaniyada çoxuşaqlı ailələrdə uşaqlara verilən imtiyazlar yaşa görə fərqlidir.

Rusiyada 1992-ci ildə "Çoxuşaqlı ailələrə sosial yardımın edilməsi haqqında" sərəncamda çoxuşaqlı ailələrə yardım 32 maddədə göstərilir. Onlardan biri çoxuşaqlı ailələrə 30 il müddətində, ilkin ödənişsiz ev krediti verilir. Rusiyada 1 uşağa görə 1500 rubl (təxminən 25 dollar), 2 uşağa görə 3000 rubl, 3 uşağa görə 3500, 4 uşağa görə 4000 rubl verilir.

**Maraqlıdır, Azərbaycanda niyə çoxuşaqlı anaların sayında kəskin azalma gedir? Sosioloq Əhməd Qəşəmoğlu ilk öncə ailələrin iqtisadi vəziyyətinin normallaşdırılmalı olduğunu dedi:** "Əvvəllər Azərbaycanda xeyli qəhrəman analar vardı. 10 uşaqdan çox uşağı olan anaların qəzetdə adları çıxır, mükafat verilirdi. O zaman bütün Yer üzündə də əhali artımına münasibət indiki kimi deyildi. Yəni o vaxt ümumi nəzarət də yox idi. Hansı ölkədə nə qədər əhali artır artsın - bu müzakirə mövzusu deyildi. Azərbaycanda sovet dövründə ailə modeli, cəmiyyətin dəyərləri başqa idi. 70-ci illərdən başlayaraq dünyanın aparıcı təşkilatları, daha sonra BMT diqqət etməyə başladı ki, Yer üzündə əhali sürətlə artır. Əhali sürətlə artdıqda isə resurslar azalır və gələcəkdə əhalinin sayı o qədər çox ola bilər ki, resurslar bu əhalini yedirməyə çatmaz. Ona görə də 70-ci illərdən sonra belə bir böyük siyasət formalaşmağa başladı ki, çalışmaq lazımdır ki, ölkələrdə əhali belə sürətlə artmasın. Bu, ümumiyyətlə, bir az da Qərb ölkələrini həyəcanlandırırdı. Çünki Qərb ölkələrində əhali artımı çox aşağı idi, müsəlman ölkələrində isə əhali sürətlə artırdı. Bu da həm siyasi, həm demoqrafik, həm də dini cəhətdən müəyyən mərkəzləri qıcıqlandırırdı. Beynəlxalq təşkilatlar hərəkətə keçdi ki, ölkələrdə situasiyanı elə dəyişək ki, əhali artımı davam etməsin. Hətta SSRİ-nin özünə qarşı belə proseslər yaranmağa başladı. Maraqlı bir məqamı deyim. Amerikanın Futurologiya İnstitutu 69-cu illərdə hesablamışdı ki, 2000-ci ildə sovet ordusu müsəlman türk ordusu olacaq. Çünki müsəlman ailələrinə orta hesabla 5-6 uşaq düşürdüsə, o biri millətlərə 1-2 uşaq düşürdüsə, 2000-ci illərdə sovet ordusu müsəlman türk ordusu olmalı idi. Buna görə də Moskva da qorxmağa başladı. Daha sonra Yer üzündə siyasət tamamilə dəyişməyə başladı. Bunun üçün bir neçə metodlar tətbiq etməyə başladılar. Bunlardan biri BMT-nin metodu idi ki, demoqrafik siyasətlə bağlı maarifləndirmə işlərinin aparılması və sairə. BMT əsas ideya irəli sürdü ki, hər bir ölkədə bir ailədə uşaqların sayı o qədər ola bilər ki, o uşaqlar keyfiyyətli böyüyə bilsin. Bu, əslində yaxşı ideya idi. Bir ailədə 11-12 uşaq olub yarısı türməyə, yarısı işsizliyə düşməkdənsə, 4 uşaq olmağı yaxşıdır. Bu dəqiqə Yer üzündə əhalinin artması arzuolunan sayılmır".

**Sosioloq bildirdi ki, yaxşı olar ki, Azərbaycanda bir ailədə 3 uşaq olsun:** "Mən bununla bağlı vaxtilə Milli Məclis üçün sənədlər hazırlamışam, başqa təhlillərim də olub. Bir ailədə 3 uşağın olması həm əhalinin artımına kömək edər, həm də gələcəkdə vergi ödəyicilərini və sairə ailə tənzimləyir. Ailədə 3 uşaq olanda onların psixologiyası da yaxşı inkişaf edir. Ancaq təəssüf ki, əksər ailələrdə 1-2 uşaq olur. Burada da əsas məsələ iqtisadi vəziyyətdir. Çünki insanlar özləri də hiss edir ki, çox uşaq olanda problem yaranır. Əvvəllər bir ailədə 7-10 uşaq vardısa, kiçik uşaqlar böyüyün paltarlarını geyinirdi. Yəni paltara pul xərclənmirdi. Əsas diqqət uşaqların yeməyinə verilirdi. O zamanlar uşaqları təbii süd, qatıqla dolandırırdılar. Amma indi tələbat artdığından, paltarlara, kitablara xərclənən pul, məktəbə gedib gəlmək hamısı ailənin büdcəsinə kifayət qədər ciddi təsir edir. Ona görə də ölkədə bununla bağlı müəyyən işlər həyata keçirilir. Amma kompleks işlər həyata keçirilməlidir. Məsələn, Rusiyada bu məsələyə artıq diqqət artıb. Azərbaycanda da diqqət artmalı, ailələrin bununla bağlı iqtisadi vəziyyətinin düzəlməsinə yardım edilməlidir. Amma bir məsələ həmişə diqqət mərkəzində olmalıdır. Doğrudan da biz çalışmalıyıq ki, ailədə neçə uşaq olursa-olsun əsas əhalinin keyfiyyəti məsələsidir. Təəssüf ki, Azərbaycanda əhalinin keyfiyyəti məsələsi haqqında danışan demək olar ki, yoxdur. Biz həm stimullaşdırmalıyıq ki, ailədə uşaqlar çoxalsın, həm də paralel olaraq o uşaqlar keyfiyyətli böyüsün".

Günel MANAFLI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

**ATƏT-in baş katibi Lamberto Zanyerin Ermənistana səfərindən dərhal sonra işğalçı ölkənin Azərbaycana qarşı daha da aqressivləşməsi, təkcə hərbi mövqelərimizin deyil, yaşayış məntəqələrimizin də atəşə tutulması ortaya suallar çıxartdı. Qarabağ probleminin dinc yolla tənzimlənməsi missiyasını üzərinə götürmüş bir təşkilatın rəhbərinin əslində İrəvanda dişsiz açıqlamalar verməsi diqqətdən qaçmamışdı və ermənilərin növbəti dəfə fürsətdən yararlanmaq cəhdi təəccüblü deyil.**






# Xəbərdarlıq öz sözünü deyir - işğalçının daha iki hərbi obyekti məhv edildi

## İrəvan addım-addım danışıqlardan imtina edir; Sərkisyanın ardınca erməni general da Madrid prinsiplərini rədd edən mövqe sərgilədi; rəsmi Bakı referendum şərtinin əksini tapan Madrid sənədindən imtina edə bilərmi?

Bir daha xatırlatmaq yerinə düşər ki, ATƏT-in baş katibi İrəvana işğalçı ölkənin XİN başçısı Edvard Nalbəndyanın dəvəti ilə gəlmişdi. Nalbəndyanın son zamanlar müxtəlif bəhanələrlə Azərbaycanla danışıqlardan imtina etməsi - Rusiyanın təşəbbüsü ilə baş tutan nəticəsiz görüşlər istisnadır, çünki Ermənistan Moskvanın iradəsinin ziddinə gedə bilməz - həmçinin qanunsuz olaraq Qarabağa gəldiyi zaman ilin sonunadək Dağlıq Qarabağın "müstəqilliyinin" ən azı bir dövlət tərəfindən tanınacağı barədə vəd verməsi yaxın zamanların reallıqlarındandır. Danışıq aparan diplomatın özünü səhra komandiri kimi aparmasına rəğmən, ATƏT rəhbərliyinin onun dəvətini yerə salmayıb Ermənistana müəmmalı səfər etməsi şübhələr yaradır. Bu səfərdən sonra isə işğalçının hətta dinc sakinləri atəşə tutması Ermənistanın öz havadarlarından sifariş aldığını deməyə əsas verir. Ancaq bəzi müşahidəçilər gərginliyi Ermənistanın "patron"unun tətikləyə biləcəyini də istisna etmir. Hesab olunur ki, prosesləri tam nəzarət altında saxlamağa üstünlük verən Kreml ATƏT-in baş katibinin səfərinin onun maraqlarına ziyan verəcəyindən narahatlıq keçirdiyi üçün hərəkətə keçə bilər. Son zamanlar Rusiyadan Azərbaycana yönəlik soyuq mesajlar da şübhələrə əsas yaradır.

Xatırladaq ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfər çərçivəsində iyunun 19-da Bakıda olacaqlar. Ermənistan xarici işlər naziri E.Nalbəndyanın ATƏT-in baş katibi ilə keçirdiyi mətbuat konfransında səsləndirdiyi cəfəng fikirlərin qarşılığında Azərbaycan tərəfi növbəti dəfə bəyan edib ki, münaqişənin substantiv danışıqlar yolu ilə davam etdirilməsinə hazırdır.

Artıq Müdafiə Nazirliyinin xəbər verdiyi kimi, mayın 30-da gecədən başlayaraq mayın 31-i səhərədək Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan, o cümlədən 82 və 120 millimetrlik minaatanlardan istifadə edilməklə mövqelərimiz və cəbhənin Tərtər, Ağdam və Füzuli rayonları ərazisində bir sıra yaşayış məntəqələrimiz atəşə tutulub. Bunun qarşılığında Azərbaycan Müdafiə Nazirliyi xəbərdar edib ki, Ermənistan silahlı qüvvələri bölmələrinin bu cür təxribatları təkrarlanarsa, Azərbaycan Silahlı Qüvvələri uzaq məsafədəki hədəfləri vuran artilleriya sistemlərini tətbiq etməklə düşmən müdafiəsinin dərinliyindəki yaşayış məntəqələrini atəşə tutacaq. Azəraycan tərəfi ilk dəfədir ki, işğalçıya "yaşayış məntəqələri" ilə bağlı xəbərdarlıq edir.

Əslində bu xəbərdarlıq tamamilə məntiqli və əsaslıdır. Ermənistan ordusu bütün təmas xətti boyunca və dövlət sərhədinin müəyyən istiqamətlərindən vaxtaşırı Azərbaycanın dinc sakinlərini atəşə məruz qoyur. Azərbaycanın analoji addım atması həm erməni əhalinin işğalçı orduya təzyiqlərini artırar, həm də beynəlxalq təşkilatları işğalçıya təsir etməyə vadar edər. Çox hallarda işğalçı ordu mülki ermənilərdən "meşin" kimi istifadə edir, yaşayış məntəqələrinin arxasında mövqe qurub Azərbaycanın mövqelərinə güllə yağdırırlar ki, bunun da, nəhayət, tutarlı cavabı olmalı idi. Ümumiyyətlə, əksər ekspertlər Azərbaycan ordusunun düşmənə təzyiqləri artırmasını təqdir edir və hesab olunur ki, Ermənistanı durdurmağın, onu danışıqlara vadar etməyin yeganə yolu davamlı şəkildə işğalçıya itkilər verdirməkdir. Məhz belə təzyiqlər nəticəsində işğalçıya ölkənin Qarabağdakı hərbçiləri posta çıxmaqdan belə imtina edirlər, daxildə ölümlə nəticələnən hesablaşmaların şahidi oluruq.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Müdafiə Nazirliyinin xəbərdarlığı doğru və yerində verilib:** "Psixoloji təzyiqi də artırmalıyıq. Hollivudun məşhur qorxu filmlərinin rejisoru Alfred Hickokun yanaşmasından istifadə etmək lazımdır. Onun filmlərini tamaşaçıya psixoloji təzyiq vasitəsidir. Biz də erməniləri bizim çəkdiyimiz "film"i izlətməyə məcbur etməliyik".

Qeyd edək ki, Azərbaycan ordusu son günlərdə düşmənə nöqtəli zərbələr vurmaqla onu xeyli sarsıda bilib. İki gün əvvəl Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Füzuli-Xocavənd istiqamətində mövqelərimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin uzunmüddətli atəş nöqtəsinin bölmələrimiz tərəfindən məhv edildiyi barədə məlumat və videokadrlar yaymışdı. Düşmən ölkə Azərbaycan ordusunun açdığı cavab atəşi nəticəsində Alik Avanesyanın ölümcül yaralandığını açıqlayıb. İyunun 1-də isə Müdafiə Nazirliyi xəbər yaydı ki, Ermənistan-Azərbaycan qoşunlarının qarşıdurma xəttində, düşmənə məxsus bölmənin mühafizə olunan komanda müşahidə məntəqəsi və müşahidə qülləsinin optik qurğusu bölmələrimiz tərəfindən atəşlə dağıdılıb. Göründüyü kimi, davamlı təzyiqlər öz işini görür. Əgər işğalçı təcavüzə son qoymaq istəmirsə, ATƏT də missiyasına uğrun fəaliyyət göstərmirsə, başqa çıxış yolu qalmır.

**Politoloq Elxan Şahinoğlunun bu xüsusda xatırlaması diqqət çəkir:** "Keçmiş xarici işlər naziri Tofiq Qasımov mənə nəql edirdi ki, 1992-ci ildə Azərbaycan ordusu uğurlu hərbi əməliyyatlara başladıqda İrəvandan mesajlar alırdı. Mesajın mənası bu idi ki, Azərbaycan ordusu hücumu dayandırsın, Ermənistan Dağlıq Qarabağın istənilən muxtariyyət statusuna razıdır. Tofiq Qasımovun sözlərindən anladım ki, o, hücuma fasilə verilməsinin və ermənilərlə bölgənin aşağı statusu barədə danışıqların tərəfdarı idi. Çünki durum Azərbaycanın xeyrinə idi. Ancaq ordu ard-arda uğurlar qazanırdı və Tofiq Qasımovdan fərqli olaraq hakimiyyətdə təmsil olunanların əksəriyyəti sona qədər getməyin tərəfdarı idilər. Sonrası bəllidir".

**E.Şahinoğlunun fikrincə, Azərbaycan ordusu cəbhə bölgəsində təzyiqi daha çox artırmaqla Ermənistanı 1992-ci ildəki mövqelərinə qaytara bilər:** "Əlbəttə, bu, qısa zamanda baş verməyəcək. Ancaq son illər Dağlıq Qarabağ ətrafında düşmənin vurulan hərbi texnikası və artan itkiləri işğalçıya onu anlatmalıdır ki, bunun miqyası getdikcə artacaq. Dağlıq Qarabağda hərbi toqquşmalar iki ölkənin siyasi, iqtisadi, maliyyə və hərbi potensiallarının müharibəsinə çevrilir. Potensialı çox olanın müsbət nəticəyə ümidi ola bilər. Müharibə maliyyə tələb edir. Hər gün atılan güllələrin və raketlərin, o cümlədən vurulan hərbi texnikanın yenisi alınmalıdır. İşğalçı dövləti hərbiyə daha çox maliyyə xərcləməyə məcbur etmək lazımdır. Əlbəttə, paralel olaraq ordudakı satqın şəbəkəsinin də axırına çıxılmalıdır ki, uğura yaxınlaşa bilək".

**Bu arada Ermənistanın keçmiş baş qərargah rəisi (1992-1995-ci illərdə), 1993-cü ildə müdafiə nazirinin vəzifələrini icra edən general-leytenant Norat Ter-Qriqoryants sərsəm bəyanatla çıxış edib. Ter-Qriqoryants hesab edir ki, Madrid prinsipləri ləğv olunmalıdır (azvision.az). Erməni general müsahibəsində açıq-aşkar Azərbaycan torpaqlarının qaytarılmasına qarşı olduğunu bəyan edib.** "Onlar Madrid prinsipləri ətrafında danışıqlar aparır. Əraziləri qaytarmaq nə deməkdir? Nə qaytarmaq, kim qaytarır? Bu, Rusiya Federasiyasının Azərbaycana ötürdüyü erməni ərazisidir. Həmin müqavilənin ləğv edilməsi üçün Rusiya ilə danışıqlar aparılmalıdır" - erməni general təxribatçı çıxışında deyib.

Diqqətlə araşdırsaq, görərik ki, erməni general əslində bu fikriləri təsadüfən səsləndirməyib. Belə ki, ötən ay Ermənistan parlamentindəki çıxışında ilk dəfə bu barədə prezident Serj Sərkisyan iddialar səsləndirdi. O bildirdi ki. Indiyə qədər masa üzərinə çıxarılmış həll variantlarının heç biri Ermənistanın maraqlarına cavab verməmiş. Qeyd edək ki, 20 il ərzində Azərbaycan və Ermənistana Paket (iyun 1997), mərhələli (sentyabr 1997), "Ümumi dövlət" (noyabr 1998), Madrid (noyabr-dekabr 2007-2008) və Yenilənmiş Madrid Prinsipləri (iyul 2009) variantları təqdim edilib. Madrid prinsiplərini ATƏT MQ həmsədr ölkələrinin xarici işlər nazirləri, Yenilənmiş Madrid Prinsiplərini isə ATƏT MQ həmsədr ölkə prezidentləri təsdiqləyiblər. Prezident S.Sərkisyan Kazan sənədinin (iyun 2011) son işçi sənəd olduğunu bildirib. Dolayısı ilə Ermənistan Madrid prinsiplərindən imtina edir. Əslində indi daha çox hakimiyyətinin ömrünü uzatmağı qarşısına məqsəd qoyan S.Sərkisyanın sülh danışıqlarında maraqlı olmadığı bəllidir. Üstəlik, Rusiya öz planlarını reallaşdırmaqda israrlıdır.

Əgər Ermənistan Madrid sənədindən imtina yolu seçibsə, Azərbaycan niyə referendum şərti əksini tapan bu prinsipləri rədd etməsin? Hələlik rəsmi Bakının məsələyə reaksiyası yoxdur. Amma XİN son bəyanatında da danışıqlara hazır olduğunu açıqlayıb.

**Siyasi analitik bildirdi ki, Madrid planının əksər hissəsi Azərbaycana uyğundur:** "Çünki plana görə ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalı, məcburi köçkünlər geri dönməlidirlər. Bu planda bizim üçün yeganə təhlükə sonrakı mərhələdə referendumun keçirilməsidir. Status məsələsini biz ən axırda müzakirə etməyə hazırıq. İrəvan isə referendumla bağlı təminat aldıqdan sonra planın digər maddələrini yerinə yetirməyə hazır olduğunu bəyan edir ki, bu da bizim maraqlara ziddir. Elə buna görə də plan həyata vəsiqə qazanmır".

İyunun ortalarında Minsk Qrupunun həmsədrlərinin də bölgəyə səfəri nəzərdə tutulub. Ancaq bu səfərdən də ciddi nəticələr gözləməyə dəyməz. Həmsədrlər daha çox status-kvonu saxlamaqda maraqlıdırlar. Necə ki, Fransanın Ermənistandakı səfiri Jen-François Çarpentier bu barədə danışıb. Diplomat deyib ki, Minsk Qrupunun missiyası Qarabağ münaqişəsini həll edə biləcək şərtlər yaratmaqdır, həmsədrlər qərar vermir: "Qərar vermək hüququ münaqişə tərəflərinə məxsusdur". Düzdür, səfir "status-kvo davam edə bilməz", - deyə fikirlərini yekunlaşdırıb.

Ancaq işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsinin qoyulmasının, həlli tərəflərin üzərinə qoymağın məntiqi nəticəsi odur ki, vasitəçilər məsələnin uzanmasında maraqlıdır, nəinki həllində. Odur ki, indi söz Azərbaycan ordusunundur. Təcrübə göstərir ki, Ermənistanı danışıqlar masasına və güzəştli mövqeyə ordumuz vadar edə bilər. Bunu 1992-ci ilin Ağdərə, 1992-93-cü illərin Horadiz, 2016-cı ilin aprel döyüşləri sübut edib...

**Politoloq Elxan Şahinoğlu isə məsələ barədə fərqli düşünür:** "Erməni generalın nə deməsindən asılı olmayaraq rəsmi İrəvan Madrid planından imtina edən deyil. Çünki bu halda Ermənistan hakimiyyəti antisülh mahiyyətini və status-kvonu uzatmaq siyasətini üzə çıxaracaq. Ermənistan hakimiyyəti üzdə də olsa sülhpərvər kimi görünmək istəyir. Minsk Qrupu formatının hazırladığı plandan imtina müharibəyə dəvətdir, bu isə Azərbaycanın xeyrinə olacaq. Onsuz da biz beynəlxalq aləmə İrəvanın oyun oynadığını, vaxtı uzatmağa çalışdığını sübut etməyə çalışırıq. İrəvan plandan imtina edərsə, bu, işimizi asanlaşdıracaq. Ona görə hiyləgər Ermənistan hakimiyyətinin Madrid planından imtina edəcəyini düşünmürəm. Belə olan halda rəsmi Bakının bu bu plandan imtina etməsinə ehtiyac yoxdur".

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

**Goranboyda bir gündə iki nəfəri ilan sancıb. Veyisli kənd sakini 29 yaşlı Zalid Hüseynov sol əlin ilan sancması xəsarəti ilə rayon mərkəzi xəstəxanaya yerləşdirilib. Hər iki şəxs Goranboy rayon xəstəxanasına çatdırılıb. Onlara ilan zəhəri əleyhinə tibbi yardım göstərilib.**



# İlanların Bakıda gizlənməyə yeri qalmayıb - təhlükə

## Zəhərli sürünənlərin ölkə ərazisində artmasına səbəb nədir?

Tibb ocağından verilən məlumata görə, son günlər rayonda ilanvurma halları artıb: "Əhalinin kənd təsərrüfatı ilə məşğul olma sezonu olduğu üçün onların sahələrdə ilanlarla kontaktda olma halları artıb. Son bir neçə gündə 6 nəfər ilanvurma əlaməti ilə xəstəxanaya müraciət edib. Onlar müxtəlif ağırlıqda olublar. Hər bir xəsarət alana ilan zəhəri əleyhinə zərdablar vurulub". Həkimlər vətəndaşları diqqətli olmağa çağırıb. Bildirilir ki, əgər ilan sancma halı olarsa, dərhal xəstəxanaya müraciət olunmalıdır.

Bu isə hələ qovurucu istilər düşməsə də, ilanların niyə bu qədər aktivləşməsi ilə bağlı sualları gündəmə gətirir. Zooloqlar deyir ki, əslində son zamanlar yağışların artması ilanların daha çox aktivləşməsinə səbəbdir. Yaz yağışları intensivləşdiyi üçün ilanlar da öz yuvalarından daha çox çıxmağa başlayıb.

Daha bir versiya isə ondan ibarətdir ki, əslində ilan və həşəratların artması ilə bağlı deyilənlər real deyil. Bakıda, eləcə də Bakıətrafı rayonlarda boş yer saxlanmayıb. İnsanlar həmin yerlərdə binalar tikərək, hər yeri zəbt ediblər. Bu səbəbdən də ilanlar məcburən kəndlərə hücum edirlər. Belə ki, meqapolis böyüdükcə torpaqlar zəbt olunur, binalar tikilir. Nəticədə təbiətin qanununa uyğun olaraq, yerdəyişmə baş verir, ilanlar da öz yerlərindən ayrı düşdükləri üçün kənd yerlərində insanların canına qəsd etməyə başlayır.

Məsləhətlərdən biri odur ki, ilan sancmalarına qarşı profilaktik tədbir kimi ilan saxlama məntəqələri yenidən bərpa olunsun. Xatırlayırsınızsa, sovet dönəmində Abşeron yarmadasında ilan saxlama məntəqəsi vardı. Həmin illərdə Azərbaycan dünyaya gürzə zəhəri satırdı. Bəs indi dünyanın ən gəlir gətirən sahəsi hesab olunan ilan zəhəri biznesi Azərbaycanda niyə inkişaf etdirilmir?

**Dünyanı ilan zəhəri ilə Cənubi Koreya, Çin, Vyetnam təmin edir**

Statistikalar isə göstərir ki, hər il 100 min insan ilan sancmasından dünyasını dəyişir. Zəhərli insanlar bir çox dərmanların və elmi araşdırmaların ən vacib qaynağı sayılır. Fransanın cənub-şərqindəki bir firmada zəhər istehsalında istifadə edilmək üçün 70 ayrı növdə saysız-hesabsız ilan bəslənir. İlan və əqrəblər otaq temperaturu və nəmi həssaslıqla yoxlanan otaqlarda saxlanır. Bu canlılar hər ay sağılır və südlərindən bir neçə qaşıq dolusu zəhər əldə edilə bilir. Zəhərin sinir sistemindən əzələlərə, qan dövranından böyrəklərə qədər bir çox orqana təsiri böyükdür. İlan və əqrəb zəhərinə dərman sənayesində ciddi tələbat olsa da, zəhərin əldə edilməsi bir o qədər məsrəflidir. Zəhərin qramı 500-4000 avro arasında dəyişir.

Dünyanın ilan zəhərinə olan illik tələbatı 10 kiloqramdır. Bu məhsulu dünya bazarına əsasən Cənubi Koreya, Çin, Vyetnam, Hindistan kimi Asiya ölkələri, eləcə də isti iqlimə malik digər ölkələr çıxarır.

Hesablamalar göstərir ki, ilan zəhəri çox gəlirli sahədir. Zəhərin emalı birinci ildə onun dəyərinin 40, sonrakı illərdə isə 60 faizi qədər gəlir gətirir. Dünyada qurudulmuş ilan zəhərinin bir qramı 600-800 dollar arası dəyişir. Zəhər təmizlənib sertifikatlaşdırıldıqdan sonra bu qiymət təxminən 2 dəfə artır.

Heç kimə sirr deyil ki, Azərbaycan keçmiş SSRİ dövründə ilan zəhərinə olan ehtiyacın 65-70 faizini ödəyirdi. Bu zəhərdən SSRİ-nin tibb bazarında dərman preparatları hazırlamaq üçün istifadə olunurdu. SSRİ dağıldıqdan sonra ilan zəhərinin sifarişçisi olan Estoniyaya zəhər göndərilməsi də dayandırıldı. Bununla da Azərbaycan üçün bazar itirildi.

**Azərbaycanda ilançılıq sahəsində perspektiv var, amma...**

Mütəxəssislərin bu günə qədər verdiyi açıqlamalardan və statistikadan bəlli olur ki, Estoniya ilə əlaqələr kəsildikdən sonra Azərbaycanda ilan zəhəri satılmayıb. Hətta 1995-ci ilə qədər yığılan 19 kiloqram zəhər indi də anbarda qalmaqdadır. Başlıca problem zəhərin istehsalçısı olan mərkəzin fəaliyyət göstərməməsidir. Bunun nəticəsi olaraq, hazırda Azərbaycanda zəhərlə bağlı problemlərlə məşğul olanlar da yoxdur.

Azərbaycanın Zirə kəndində ilan zəhəri istehsal etmək üçün fəaliyyət göstərən Herpetoloji Kombinat 70-ci illərdə SSRİ-nin müxtəlif əczaçılıq zavodlarına hər il olduqca yüksək qiymətə zəhər idxal edirdi. Bu zəhərdən müxtəlif farmokoloji kombinatlarda dərman preparatlarının hazırlanmasında istifadə olunurdu. Sovet dövründə ilanı tutub təhvil verənləri isə mükafat gözləyirdi. Ancaq SSRİ-nin süqutundan, Zirə Herpetoloji Kombinatının dağıdılmasından sonra ilanlar ətraf ərazilərə səpələndilər.

Zəhərli ilanlar və həşəratlara ölkəmizdə ən çox Kür-Aran ovalığında, Araz çayı hövzəsində rast gəlinir. Ən qiymətli zəhərə malik olan gürzə ilanının növlərinə də məhz Azərbaycanın aran rayonlarında və dağətəyi zonalarında rast gəlinir.

Mütəxəssislər hesab edir ki, Azərbaycanda ilançılıq sahəsində perspektivlər çox genişdir. Üstəlik, bu sahənin inkişafı böyük sərmaye tələb etmir və ölkənin aidiyyəti institutları da ilançılığın inkişafına dəstək göstərə bilər. Bir sözlə, həm təbii resurslar, həm də insan-intellektual potensialı bu sahənin inkişafına zəmin yaradır.

**İlan toplayıb, milyoner olmaq olar?**

İlan toplanması ilə professional şəkildə məşğul olan işbazlar da var. Arıçılıq, toxuculuq.... kimi ilançılıq da bir peşədir. İlan qaçaqçılarının Türkiyə coğrafiyasından toplayıb, topdançılara verdikləri ilanların qiyməti 500-lə 5 min dollar arasında dəyişir. Çox görülən və yaxalanması da asan olan ilanlar 500 dollara alıcı tapdığı halda, Toros, Qüds ilanı kimi tanınan qiymətli və nadir tapılan ilanlar 2 min dollara çox rahat satılır. Buynuzlu ilan isə 5 min dollara da alıcı tapır. Bu qiymətlər ilanı ölkə xaricinə çıxaran vasitəçilərin xarici alıcılardan aldıqları məbləğdir. Halbuki onlar malı bu qiymətin yarısına yerli qaçaqçılardan və ya kəndlilərdən alırlar. Satışlarda ilanın boyu və rəngi də önəmlidir. 1 metrdən qısa olan ilanlar alıcılar tərəfindən maraq görmür. Amma əgər bu kiçik ilan nadir tapılan növdəndirsə, o zaman vəziyyət dəyişir, qiymət avtomatik artır.

**Azərbaycan ilan zəhəri istehsal etmək üçün 1.5 milyonluq laboratoriya qurmalıdır**

Amma burda bir vacib məqam da var. Bazara ilan zəhəri çıxarmaq üçün ona dünya standartlarına uyğun sənədlər hazırlanmalıdır. Bu sənədlərin hazırlanması üçün aparılacaq laboratoriya analizləri də böyük xərc tələb edir. Fakt onu göstərir ki, Azərbaycandakı sənəd sovet dövründən qalmadır. Hər məhsul təqdim ediləndə sənədi olmalıdır. İlan zəhərinin də xüsusilə keyfiyyət sertifikatına fikir verilir. Alıcı aldığı məhsulu sertifikatdakı göstəricilərlə tutuşdurur. Əgər uyğun gəlirsə, o məhsulu alır.

Azərbaycanda o keyfiyyət sertifikatını hazırlamaq mürəkkəb prosesdir. Sənədləri hazırlamaq üçün tələb olunan laborator analizləri aparmaq üçün tələb olunan laboratoriya Azərbaycanda yoxdur. Bu səbəbdən də Azərbaycanın bu biznesə qoşulması ciddi məsrəf tələb edir. İlkin çıxış yolu kimi Azərbaycanın kənardan laboratoriya tapması göstərilir. Əgər Azərbaycan müstəqil şəkildə belə laboratoriya hazırlatmaq istəyirsə, o zaman bunun üçün 1-1,5 milyon manat vəsaitdən keçməlidir.

Ekspertlər isə müşahidə edirlər ki, 20-25 il bundan öncə ilə indini müqayisə etdikdə hazırda ilan zəhəri istehsalı çoxalsa da, buna nəzarət də artıb. Çünki texnika bu sahədə dələduzluq imkanlarını da artırıb. Rənglənmiş, xarici görünüşünə görə ilan zəhərinə oxşayan cürbəcür üzvi və qeyri-üzvi maddələr, hətta şüşə qırıqları adı ilə dünya bazarına zəhər aparırlar. İlan zəhərinə güclü tələbat olan ölkələr də artıq məhsulu alarkən daha güclü göstəricilərlə yoxlayıb götürürlər.

**Hər ilan növünün zəhəri bir xəstəliyə dərmandır**

Hər bir ilan növünün zəhəri ayrı-ayrı xəstəliklərdə istifadə olunur. Kobra ilanının zəhəri sinir-əsəb sistemi ilə bağlı olan xəstəliklərin, gürzə və gürzə kimi ilanların zəhəri ürək-qan-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilir. Hər bir ilan zəhəri tibbi xammal olaraq dərman istehsalı üçün istifadə olunurdu. İlan zəhərinin tərkibi albumin, qlobilin, ferment, su, duz və s. maddələrdən ibarətdir. Lakin ilan zəhərinin hamısı eyni tərkibdə olmur. Məsələn, gürzə zəhərinin tərkibində qansızmaya səbəb olan toksin, gözlüklü ilan zəhərinin tərkibində sinir sistemini zəhərləyən neyrotoksin var. İlan sancmasının əlamətləri də müxtəlifdir. Gürzə sancması ödemə, gözlüklü ilan sancması ürəkdöyünməyə, başgicəllənmə, ürəkbulanma və qusmaya səbəb olur, bəzən ölümlə nəticələnir.

Qızıldan qiymətli olan ilan zəhəri müxtəlif xəstəliklərin müalicəsində işlədilir. Zınqırovlu və gözlüklü ilanların zəhəri epilepsiya, bronxial astma, əzələ, xroniki oynaq ağrıları və nevrologiyada istifadə edilir. Vərəm, qaraciyərin qan dövranının pozulması və böyrək xəstəliklərinin ağır formalarında ondan istifadə etmək olmaz.

SSRİ də təbiətində çoxlu zəhərli ilan növləri yayılan respublikalara ilan zəhərinin istehsalı ilə bağlı tapşırıqlar vermişdi. 1969-cu ildən başlayaraq Azərbaycandan da tələb olundu ki, gürzə ilanları təbiətdən ovlanıb, müvəqqəti olaraq süni surətdə saxlanıb, zəhəri alınıb Estoniyanın Kimya Əczaçılıq Zavoduna göndərilsin. İlan zəhərindən ən yaxşı dərman hazırlayan bir əczaçılıq zavodu idi. Azərbaycanda bu işə başlanıldı və 90-cı ilin əvvəllərinə qədər bu istehsal davam etdi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

# "Həzrəti Yusif" serialı Azərbaycan ekranlarından niyə yığışdırılıb? - İlginc səbəb

**Statistikadan belə məlum olur ki, son 6 ildə Azərbaycanda oğlan uşaqlarına daha çox Yusif adı qoyulur. Məsələn, 2011-ci ildə doğulan 4170 körpənin adı Yusif olub. Ötən il də Yusif adı siyahıda birinci olub - 3395 körpəyə Yusif adı verilib. Eləcə də bu il də oğlanlara verilən ad siyahısında Yusif birinci yerdədir, siyahıda sonra gələn adlar isə Əli Hüseyn, Ömər və digər adlardır.**



## Yerli telekanallarda Ramazan əhval-ruhiyyəsi hiss olunmur; televiziyaların məsələ ilə bağlı öz izahı var...

Maraqlıdır, niyə son 6 ildə valideynlər uşaqlarına Yusif adını qoymaqda maraq göstərir? Buna səbəb nədir? İddialara görə, bunun ən əsas səbəbi 2010-11-ci illərdə Azərbaycanda böyük tamaşaçı kütləsi qazanan və hər kəsin müzakirə etdiyi, İran istehsalı olan "Həzrəti Yusif" teleserialıdır. Məhz həmin illər ərzində serialın təsirindən əksər valideynlər yeni doğulan körpələrinə Yusif adı qoymağa başlayıb. Hətta Ədliyyə Nazirliyi açıqlama yayaraq bildirmişdi ki, 2010-14-cü illər ərzində valideynlər 258 oğlan uşağına Həzrət, 2 körpəyə isə Həzrətiyusif adını verib.

45 seriyadan ibarət film 2008-ci ildə çəkilib. Satışa çıxdığı ilk gündən Latın Amerikası, Avropa ölkələrində, həmçinin Türkiyədə, Pakistanda urdu dilində və ərəb ölkələrində dünyanın müxtəlif dillərinə, o cümlədən türk, Azərbaycan, ingilis, fransız, ərəb, italyan, ispan və sairə dillərə tərcümə edilərək yayımlanıb. Filmin çəkilişləri 7 il davam edib. Büdcəsi 2 milyon ABŞ dəyəri olan serialda Yusif peyğəmbərin atasından ayrı düşməsindən, qul olaraq satılmasından, Züleyxanın ona qarşı məhəbbətindən, kahinlərə qarşı mübarizə aparmasından, fironla görüşməsindən və sonda atası ilə görüşməsindən danışılır. Qısa zaman kəsiyində film bütün baxış rekordlaırnı yenilədi, böyük uğur əldə etdi. Həzrəti Yusif rolunu canlandıran Mustafa Zəmani isə TV kanalların mükafatlarını qazanıb. Film Türkiyədə "Star TV" və "Kanal7" kanallarında da yayımlanıb.

Serial ölkəmizdə 2010-cu ildə Ramazan boyunca "Space TV"də yayımlanmışdı. Filmin dublyajını mərhum xalq artisti İlham Əsgərov, xalq artisti Həmidə Ömərova, əməkdar artist Kazım Abdullayev kimi peşəkar aktyorlar səsləndirmişdi. 2011-ci ildə serialın "Lider TV" kanalında da yayımlanacağı haqda anonslar yayılsa da, sonradan adıçəkilən televiziya texniki səbəblər üzündən serialın yayımının dayandırıldığını açıqladı.

Beləliklə, artıq bir neçə ildir ki, serial nə Ramazan günlərində, nə də adi günlərdə ekranlarda yayımlanmır. Maraqlıdır ki, bu il də Ramazanın ilk günlərini yaşadığımız vaxtlarda televiziya kanallarında bu cür dini film və ya verilişlər müşahidə olunmur, orucluq əhval-ruhiyyəsi yaşanmır. Hətta bəzi kanallarda müəyyən olunmuş gecə saatlarında deyil, daha tez vaxtlarda müxtəlif araq içkilərinin şirnikləndirici reklamları gedir. Halbuki qonşu dövlətlərdə, hətta spirtli içkiyə daha çox meylli olan Rusiyada belə bu cür içkilər daha az reklam olunur *(Hazırda "Həzrəti Yusif" Türkiyədə "Kanal 7"də yayımlanır).*

**Məsələ ilə bağlı bir sıra televiziya kanallarının mövqeyini öyrənməyə çalışdıq. ATV mətbuat xidmətinin rəhbəri Turan İbrahimov bəzi məzhəb problemlərinə görə dini verilişlərin yayımlanmasından çəkindiklərini bildirdi:** "Dövlət miqyasında dini verilişlər var. Məsələn, "Space TV"də var, digər kanallarda da bu cür verilişlərlə rastlaşmışam. O ki qaldı ATV kanalına, ta əvvəldən kanalımız xüsusi olaraq din üçün verilişin ayrılması, bununla məşğul olmaqdan bir qədər çəkinib. Bilirsiz ki, Azərbaycanda dinlə bağlı bəzi məzhəb problemi var. Buna görə də müəyyən mənada "yaxşı iş görərik, burda bir qədər fitnə olar" deyə çəkinirik və bu məsələlərdən uzaq durmuşuq. Artıq bir neçə ildir ki, ATV kanalına daxil olan radioda Ramazanla bağlı dini veriliş yayımlanır. Yəni məsələyə biz çox müdaxilə etmirik, müəyyən mənada başqa problemlərin çıxacağından çəkinirik. Lakin ATV-nin bəzi verilişlərində Ramazanla bağlı müzakirələr olur, din adamları mütəmadi olaraq verilişlərə dəvət alır, onlar situasiyalara uyğun olaraq dini maarifləndirmə aparırlar".

**ATV əməkdaşı spirtli içkilərin reklamı ilə bağlı məsələyə də toxundu:** "Bizdə reklam haqqında qanun var. Həmin qanunda hansı vaxtlarda reklamın gedib-getməyəcəyi haqda bildirilir. Buna əsasən də spirtli içkilərlə bağlı reklamlar gec saatlarında verilir. Bu zaman nəzərə alınmır ki, hazırda Ramazan və yaxud digər aylardır. Yəni Azərbaycan dünyəvi ölkə olduğuna görə bütün qanunvericilik və digər qayda-qanunlar dini inanclara əsaslanmır. Buna görə məsələyə "Ramazan ayında niyə spirtli içkilərin reklamı gedir" kontekstində baxmaq doğru deyil".

**AzTV-nin mətbuat xidmətinin rəisi Xatirə Qasım isə məsələyə bu cür şərh bildirdi:** "Mədəniyyət kanalında "Haqqın dərgahı" verilişi yayımlanır. Və həmin verilişi uzun illərdir ki, Vasim Məmmədəliyev aparır. Həmin verilişdə Ramazanla bağlı bütün məsələlərə ətraflı toxunulur. Həmçinin "Xəbərlər" və "Səhər" verilişində hər gün Ramazanın günləri, imsak və iftar vaxtları açıqlanır. Adəti üzrə Ramazan ayı başa çatdığı gün hansısa dini bədii film nümayiş olunur".

"Lider TV"dən isə bildirildi ki, "Xəbərlər" proqramından dərhal sonra iftarla bağlı ayrıca veriliş yayımlanır.

❑ Xalidə GƏRAY

# Həmasın yeni lideri kimdir?

## İslamçı xəttə olan Həmas müsəlman dünyasından, o cümlədən İrandan dəstək alsa da, Qərb ölkələri tərəfindən terror təşkilatı kimi tanınır

**Xəbər verdiyimiz kimi, Fələstin müqavimət hərəkatı Həmasın rəhbərliyi dəyişib. 2006-2016-cı illərdə Qəzza zolağında fəaliyyət göstərən Həmas hökumətinin baş naziri İsmayıl Haniyə Həmas Siyasi Bürosunun rəhbəri seçilib. Onu bu postda hazırda Qətərin paytaxtı Dohada yaşayan Xalid Məşalı əvəz edib.**

Türkiyənin baş naziri Binəli Yıldırım iki gün əvvəl İsmayıl Haniyəni Həmasın Siyasi Bürosunun rəhbəri seçilməsi münasibətilə təbrik edib. Həmas Fələstinin iki əsas müqavimət qruplaşmasından biridir. 2007-ci ildə Həmas və Fəth təşkilatı arasında seçkilərdən sonra yaranmış qarşıdurmadan sonra Həmas Qəzza zolağında hakimiyyəti ələ keçirib və bölgəni bu günə qədər idarə edib.

Fələstinin əsas hərbi-siyasi təşkilatı olan Fəth təşkilatından fərqli olaraq Həmas nisbətən gənc qruplaşmadır. Həmas Hərəkatı Fələstində birinci "İntifada" zamanı yaranıb. 1987-ci ildə Fələstində İsrail işğalına etiraz olaraq başlayıb və 4 il davam edib. Yalnız 1993-cü ildə Oslo razılaşmasının imzalanması ilə dayandırılıb. "İntifada" həmin 1987-ci il dekabrın 7-də Cəbaliyə qaçqın düşərgəsindən başlayıb. Belə ki, o vaxt İsrailə məxsus yük maşını fələstinli işçiləri daşıyan maşınla toqquşur və nəticədə 4 fələstinli ölür, 9 nəfər isə yaralanır. Bu hadisə Qəzza Universitetində tələbələrin ayağa qalxmasına səbəb olur.

Həmas Hərəkatı məhz "İntifada" zamanı yaranır. Təşkilatın ideyasını Misirdə ötən əsrin əvvəllərində yaranmış "İxvan əl-Muslimun" hərəkatından alır və uzun illər "İxvan"ın bir yerli təşkilatı olduğunu elan edib. Hərəkatın əsas hədəfi Fələstin bütövlükdə İsrail işğalından azad edilənədək silahlı müqaviməti davam etdirməkdir. İslamçı xətti olan Həmas müsəlman dünyasından, o cümlədən İrandan dəstək alsa da, Qərb ölkələri tərəfindən terror təşkilatı kimi tanınır. Türkiyədə də Həmas uzun illər terrorçu hesab olunsa da, AKP hakimiyyəti illərində təşkilatın ideoloji xəttinə olan rəğbət, eləcə də Fələstin mövzusuna görə Həmasa dəstəyi artıb. Hətta Xalid Məşal Türkiyədə hakim partiyanın toplantısında iştirak edib.

Həmasın siyasi qanadına 1996-cı ildən Xalid Məşal rəhbərlik edib. Təşkilatın lideri Şeyx Əhməd Yasin 2004-cü ildə İsrail vertolyotlarının atdığı raket zərbələri nəticəsində öldü. Bundan sonra Həmasın siyasi qanadı Qətərdə Məşalın rəhbərliyi altında fəaliyyət göstərdi, digər qanadı isə Qəzzada idi. Həmasın hərbi qanadının adı isə "İzzəddin əl-Qəssam briqadası" adlanır.

Qeyd edək ki, Həmasın yeni siyasi lideri İsmayıl Haniyə 1963-cü ildə Qəzzada, Şati qaçqın düşərgəsində anadan olub. 1987-ci ildə Qəzzadakı İslam Universitetinin ərəb dili ədəbiyyatı fakültəsini bitirib. Haniyə 10 ildən artıq Qəzzadakı Həmas hökumətinə rəhbərlik edib. 2006-cı ildə Fələstində keçirilən parlament seçkilərində Həmas ümumi səslərin 61 faizini qazanıb. Ancaq beynəlxalq aləm Həmasın terror təşkilatı olmasını əsas gətirərək Fələstin administrasiyasına təzyiq göstərib. Bundan sonra administrasiyanın lideri Mahmud Abbas hökumət qurmaq səlahiyyətini Həmasa deyil, lideri olduğu Fəth təşkilatına verib. Bu isə narazılığa və ardınca gərginliyə səbəb olub. 2007-ci ilin iyununda baş verən silahlı qarşıdurmadan sonra Həmas Qəzzada hakimiyyəti ələ alıb. Bundan sonra Fələstində iki hökumət mövcud olub. İordan çayının qərb sahilində Ramallah mərkəzli Fəth hökuməti, Qəzzada isə Həmas hökuməti.



"Ərəb baharı" Həmas üçün də sınaq olub. Suriyada başlayan toqquşmalardan sonra Həmas siyasi bürosunun ofisi Dəməşqdən köçürülüb və Həmas Suriya müxalifətini dəstəkləyib. Bu isə Həmasın əsas dəstəkçisi olan İranı narazı salıb. Nəticədə Həmas ciddi dəstək itkisi yaşayıb, çünki təşkilatın əsas silah və maliyyə yardımı İrandan gəlib. Ancaq sonrakı illərdə Həmas rəhbərliyi İrana heyət göndərərək barışmağa çalışıb.

Türkiyə ilə Həmasın münasibətləri yaxşı olsa da, 2015-ci ildən sonra İsrail Türkiyəyə Həmasla bağlı təzyiqlər etməyə başladı. Nəticədə 2012-ci ildən İstanbulda yaşayan Həmas liderlərindən olan Saleh Aruri Türkiyəni tərk etdi, Həmasın İstanbuldakı ofisi isə qapadıldı.

Ötən ay isə Həmas tarixində ciddi bir hadisə baş verdi. Vəzifəsini tərk etməyə hazırlaşan Siyasi Büro sədri Xalid Məşal təşkilatın yeni nizamnamə və proqramını elan etdi. Həmasın yeni sənədində ən çox mübahisə doğuran məqam təşkilatın 1967-ci il sərhədləri daxilində Fələstin dövlətinin qurulmasını dəstəkləməsidir. Bundan başqa, yəhudilərə və dini radikalizmə münasibət də sənəddə yer alıb və bir sıra dəyişikliklərə məruz qalıb.

Qeyd edək ki, ən çox müzakirələrə səbəb olan maddə Həmasın 1967-ci il sərhədləri daxilində Fələstin dövlətinin qurulmasını dəstəkləməsidir. Məsələ ondadır ki, 30 il əvvəl birinci Fələstin "intifadası" ilə qurulan Həmas hərəkatı Fələstin torpaqlarında yalnız Fələstin dövlətinin qurulacağını bəyan edirdi. Hətta İxvan lideri Həsən əl-Bənnanın "İsrail, İslam ondan əvvəlkiləri yox etdiyi kimi, onu da yox edənə qədər ömür sürəcəkdir" sözlərini əsas şüar etmişdi. Ancaq indi o sərt yanaşmalar yoxdur və açıqlamadan da belə görünür ki, Həmas bəyanatda İsrail dövlətini qəbul etdiyini yazmasa da, reallıqda siyasi həll proseslərini, o cümlədən Oslo prosesini qəbul edir

İndi isə Həmasın başında Haniyə var. İsmayıl Haniyə "İxvan" xəttinə bağlı, uzun illər Qəzza müqavimətinə rəhbərlik etmiş təcrübəli dövlət adamıdır. Onun zamanında Həmasın əvvəlki xətdən kənara çıxacağını, yoxsa Məşalın elan etdiyi yeni yumşalma kursunda davam edəcəyini zaman göstərəcək.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017

# Kənd Təsərrüfatı Nazirliyi niyə ləğv edilmədi...




## "İndiki məqamda Kənd Təsərrüfatı Nazirliyi spesifik bir qurumdur"

**Bir müddət öncə iqtisadçı ekspertlər hökumətdə aparılacaq islahatlar çərçivəsində bəzi dövlət qurumları ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin ləğvini də təklif edirdilər. Hətta yayılan qeyri-rəsmi məlumatlarda hökumətin buna hazırlaşdığı qeyd olunurdu. Hesab olunurdu ki, Kənd Təsərrüfatı Nazirliyi ləğv oluna və səlahiyyətləri İqtisadiyyat Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında bölüşdürülə bilər. Lakin ötən gün yayılan xəbərdə sözügedən nazirlik üçün yeni inzibati binan tikiləcəyindən söhbət gedir. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi yeni inzibati binanın layihələndirilməsi üçün podratçı seçir. Bu barədə nazirliyin elanında qeyd olunur. Seçim açıq tender üsulu ilə həyata keçirilir, burada zəruri maddi və texniki imkanları olan şirkətlər iştirak edə bilərlər.**

Bəs görəsən, hökumət Kənd Təsərrüfatı Nazirliyini ləğv etməkdən imtina edəcəkmi? Digər tərəfdən, hazırda qeyri-neft sektorunun prioritet sahəsi hesab olunan kənd təsərrüfatının inkişafına birbaşa məsul olan bu nazirliyin ləğvi nə dərəcədə doğru olardı?

"Yeni Müsavat"ın bu suallarını cavablandıran **iqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, Kənd Təsərrüfatı Nazirliyinin ləğv edilib-edilməyəcəyini proqnozlaşdırmaq çox çətindir: "Bu həm də siyasi bir qərardır və ona görə də bu qərarı ölkə prezidenti qəbul edir. Sual isə odur ki, bu nazirliyin qalması daha əlverişlidir, yoxsa digər qurumlara birləşdirilməsi? Əslində Kənd Təsərrüfatı Nazirliyinin İqtisadiyyat Nazirliyinə birləşdirilməsi struktur islahatları baxımından, eləcə də xərclərə qənaət edilməsi baxımından əlverişli olsa belə, o nazirliyin ləğv olunması iqtisadiyyat üçün müəyyən çatışmazlıqlar yarada bilər. Struktur islahatı olaraq mən bəzi qurumların birləşdirilməsini məqsədəuyğun hesab edirəm. Ancaq hesab edirəm ki, indiki məqamda Kənd Təsərrüfatı Nazirliyi spesifik bir qurumdur. Buna görə də postneft dövründə bu nazirliyin saxlanılması daha məqsədəuyğun olardı".

**Ekspert onu da vurğuladı ki, hazırda Azərbaycanda ən prioritet sektor məhz kənd təsərrüfatı sahəsidir:** "Biz qeyri-neft sektoruna və bu sektorda aqrar sektorun payına diqqət yetirsək görərik ki, ÜDM-də aqrar sektorun payı təxminən 6 faizdir. Ancaq Azərbaycanın qeyri-neft ixracatında əsas dominant sektor aqrar sektordur. Bu gün qeyri-neft ixracatının təxminən 65 faizi kənd təsərrüfatının payına düşür. Bu isə o deməkdir ki, ölkədən ixrac edilən hər 100 dollarlıq ixracatın 65 dolları kənd təsərrüfatında istehsal edilən məhsuldur. Aqrar sektor hazırda prioritet olduğuna görə bu sektorun həm ixracatda, həm də daxili tələbin təmin olunmasında rolu böyükdür. Bu həm də idxalın məhdudlaşmasına gətirib çıxarıb".

**İqtisadçının sözlərinə görə, artıq idxalın yerli istehsal məhsulları ilə əvəzlənməsi siyasətinə start verilib:** "Dövlət orqanlarının 2018-ci il yanvar ayının 1-dək məhsul idxal etməsi qadağan edilib. Hazırda idxalın əvəzlənməsi prosesi gedir. Bu isə birbaşa olaraq istehsal edilən kənd təsərrüfatı məhsullarının həcmindən asılı olacaq. Azərbaycan daha çox kənd təsərrüfatı məhsulları ixrac edəcəksə, idxalın azaldılması prosesini də həyata keçirə bilər. Deməli, yalnız ixracatda deyil, həm də idxalın əvəzlənməsində kənd təsərrüfatının rolu böyükdür. Ona görə də biz struktur islahatlarının tərəfdarı olsaq da, indiki məqamda Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin davam etməsi daha məqsədəuyğundur. Çünki birbaşa prioritet sektora nəzarət edir. Bu sahənin ixracatda payı böyükdür. Ölkənin ərzaq təhlükəsizliyinin formalaşmasında payı kifayət qədər böyükdür. Ona görə də hazırda belə bir quruma ehtiyac var".

**Vüqar Bayramov onu da vurğuladı ki, struktur islahatlarının davam etdirilməsi olduqca vacibdir:** "Enerji və su sektorunda vahid qurumların yaradılmasına ehtiyac var. Məncə, struktur islahatları Kənd Təsərrüfatı Nazirliyinin yox, digər qurumların birləşdirilməsi və ləğvi ilə davam etdirilməlidir. Məsələn, su ilə bağlı vahid bir agentliyin formalaşdırılması mümkündür".

**İqtisadçı onu da qeyd etdi ki, büdcə xərclərinə qənaət edildiyi hazırkı durumda dövlət qurumları üçün yeni binaların tikilməsi də maksimum qənaətlə və xərclərin səmərəli idarə olunması ilə həyata keçirilməlidir:** "Konkret olaraq Kənd Təsərrüfatı Nazirliyi üçün yeni binanın tikilməsində dövlətin payının nə qədər olması ilə bağlı məlumatlı deyiləm. Amma burada xərclərin səmərəli idarə edilməsi çox önəmlidir. Hansısa dövlət qurumu üçün infrastrukturun formalaşması zamanı vəsaitlərin yaxşı idarə edilməsinə ehtiyac var. Çünki daha öncəki neft bumu dövründə bu istiqamətdə ayrılan vəsaitlərin səmərəli xərclənməsi ilə bağlı xeyli şübhələr var. Kənd Təsərrüfatı Nazirliyi üçün yeni binanın tikilməsində də vəsaitlərin səmərəli xərclənməsi olduqca vacibdir. Birmənalı şəkildə vacibdir ki, bu prosesdə yalnız dövlətin deyil, vətəndaş cəmiyyəti qurumlarının, o cümlədən medianın monitorinq aparmaq imkanı olsun".

❑ **Nərgiz LİFTİYEVA**


**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə,*
***d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.






## "Nar"dan "Qutu" kimi təklif: rəqəmsal TV, fiber-optik internet və mobil xidmətlər bir paketdə və daha sərfəli

**"Nar" ölkədə rəqəmsal TV, yüksəksürətli fiber-optik internet və mobil xidmətləri bir paketdə təklif edən ilk mobil operator oldu. "Qutu" təklifindən yararlanan müştərilər rəqəmsal TV, mobil xidmətlər və sabit internet xərclərinə 50%-dək qənaət edir və ayrı-ayrı xidmətlərin aylıq ödənişi üçün vaxt itirmirlər.**

**"Qutu" təklifi sayəsində istifadəçilər ev və mobil kommunikasiya xidmətləri üçün yalnız bir operatora ödəniş etməyin rahatlığını hiss edirlər. Təklifdən yararlanmaqla abunəçilər təkcə xərclərinə deyil, həm də vaxtlarına qənaət edirlər.**

**"Qutu" təklifi ilə "Nar" müştərilərə 50-si HD olmaqla 244 telekanal, sürəti 30 mb/s-yə çatan fiber-optik texnologiya üzərindən yüksəksürətli internet, 1000 dəqiqəyədək ölkədaxili danışıq dəqiqələri, 3 GB-dək mobil internet, eləcə də 2000-dək SMS bonusları təqdim edir. "Qutu" təklifi abunəçilərin istək və tələblərini nəzərə alaraq 22 manatdan başlayan 5 müxtəlif paketdən ibarətdir. Üstəlik, "Qutu" təklifinə qoşularaq öncədən ödəniş etməklə rəqəmsal TV və internet xidməti üçün lazım olan TV-tüner və Wi-Fi ruterini pulsuz əldə etmək mümkündür.**

**Operator mobil xidmətləri və "Nar-CityNet"-in dəstəyi ilə təmin olunan rəqəmsal TV və yüksəksürətli fiber-optik interneti bir paketdə təklif edir.**

**Müştərilər büdcə və vaxtlarına qənaət edərək yüksəkkeyfiyyətli internet, TV və mobil xidmətlərdən istifadə etməklə yanaşı, həm də "Qutu" xidmətinin 24/7 rejimində fəaliyyət göstərən özəl Müştəri xidmətlərindən yararlana bilirlər. Müştəri xidmətləri ilə əlaqə saxlamaq üçün "Nar" nömrələrindən 771, stasionar telefonlardan isə (012) 444 07 71 nömrəsinə zəng etmək kifayətdir.**

**Heç yerə getmədən "Qutu"-ya qoşulmağın ən asan yolu isə qutu.nar.az internet səhifəsinə daxil olaraq qeydiyyatdan keçməkdir. İstifadəçiləri maraqlandıran suallar qutu.nar.az saytındakı onlayn çat sayəsində dərhal cavablandırılır.**

**Qeyd edək ki, "Qutu" təklifi "Nar"-ın çoxfunksiyalı rabitə strategiyasının tərkib hissəsidir. Bu strategiyanın əsas hədəfi müştərilərə müxtəlif telekommunikasiya xidmətlərini vahid platforma üzərindən təqdim etməkdir.**

**"Qutu" təklifi haqqında daha ətraflı məlumatı qutu.nar.az ttp://qutu.nar.az/ internet səhifəsindən almaq olar.**

YENİ MÜSAVAT
N 117 (6731) 2 iyun 2017




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Ramazan ayında yaşayırıq. Uca Allahdan duamız budur ki, bu ayın sonsuz nemətlərindən bizlərə əta etsin.**

# Ailədaxili münasibətlərdə möcüzə yaradan salam



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

Bugünkü bəhsimizdə biz İslamın nəzərində ailə mövzusunun araşdırılmasını davam etdirəcəyik. Ailə - yaşadığımız zəmanənin ən mühüm məsələlərindən biridir. Mühit o yerə gəlib çatıb ki, bu gün ailənin necəliyi, həmişəkindən daha çox aktual bir mövzudur. Əlbəttə, insanın tərbiyə edilməsi - kompleks bir məsələdir. Burada məktəb var, ətraf mühit var, toplumun təsisatları var. Amma bunlardan ən ümdəsi - ailədir. Məhz ailədə kiçik insan dünyaya göz açır, boya-başa çatır, ilkin tərbiyəni alır. İnsanı tərbiyə etmək funksiyasını yerinə yetirmək baxımından ailənin rolu haradasa əvəzolunmazdır. Bu baxımdan, İslam, insanın fitrəti ilə tam uyğunlaşan bir din olduğu üçün, elə öncədən də ailəni toplumda ən müqəddəs özək, hissə kimi qiymətləndirir və ailə ilə bağlı mövzulara böyük diqqət yetirir.

## Zahirən sadə, əslində mühüm

Öncəki bəhslərimizdə qeyd etdik ki, insanın “haradan gəlmişəm?”, “haradayam?”, “haraya gedirəm?” kimi vücudi sualları cavablandırması onun dünyagörüşünü müəyyənləşdirən amillərdəndir. Bunun nəticəsində formalaşan dünyagörüşü, öz növbəsində “nə etməli?” sualına cavab verməyə imkan yaradır. Və ailə bəhsi məhz “nə etməli?” müstəvisinə aiddir.

Qeyd etdik ki, bəli, insan qəbul edir ki, onun Yaradanı var; bu Yaradan Rəbb olaraq ona vəzifə müəyyən edir. İnsan qəbul edir ki, Peyğəmbər (s) var, İlahi buyuruşları ona çatdırır. İnsan qəbul edir ki, İmamlar (ə) var, hansılar ki, Peyğəmbərin (s) şəriətini ona izah etdirir, çatdırır, ona İlahi hüccəti tamamlayır. İnsan qəbul edir ki, Qiyamət günü var, sorğu-sual var, bu dünya axirətin əkin yeridir. Bəs nə etməli? Buradan müəyyən edirik ki, insanın özü ilə bağlı, Yaradanı ilə bağlı, digər insanlarla bağlı, digər yaranmışlarla bağlı münasibətləri qurulmalıdır. Və digər insanlarla necə münasibəti qurmağın içində bir mövzu xüsusiləşir ki, insan özünə yaxın insanlarla, digərlərinə nisbətən ona daha yaxın və daimi ünsiyyətdə olduğu insanlarla münasibətlərini necə qurmalıdır? Ailə də buna aid olan məsələdir ki, ailədə ata və övlad münasibətləri, ailədə həyat yoldaşları arasında olan münasibət, ana və övlad münasibəti, övladlar arasındakı münasibət - bunlar hamısı çox mühüm mövzulardır.

Bu əlaqədə qeyd olundu ki, ailədə elə zahirən sadə, adicə bir məsələlər var ki, bunlar ilk baxışda əhəmiyyətsiz görünür. Amma bunlara qarşı etinasızlıq etmək - ailədaxili münasibətlərdə, övladların tərbiyəsində olduqca mənfi rol oynayır. Bunlara, o cümlədən, səsləmək, çağırmaq, ünvanlamaq kimi mövzular aiddir. Ailədə insanlar bir-birlərini necə çağırmalıdır? İslamın bununla bağlı ümumi resepti, ümumi düsturu var və zaman, məkan, şərait baxımından bu düsturun universallığı dəyişmir. Toplum üçün İslamın hazır düsturu ondan ibarətdir ki, insan tərəf müqabilini, onun ən bəyəndiyi tərzdə çağırmalıdır.

Yəni bu, bütün topluma da, o cümlədən ailənin içində olan münasibətlərə də aiddir. Övladı çağırsan “ağılsız”, “avara”, “tənbəl” - təbii ki, uşaq böyüdükcə bu xüsusiyyətləri özündə daşımaq istəyəcək.

O cümlədən də əksinə. Uşağı çağırarsan “ağıllı balam”, “gələcəyin alimi”, “şücaətli”, “fərasətli” - uşaq çalışar bu keyfiyyətləri doğrultsun. Fikir versək, görərik ki, insanı necə çağırmağın onun şəxsiyyəti ilə birbaşa aidiyyatı var. Bir tərəfdən həm şəxsiyyəti alçaldıb-yüksəltmək məsələsi durur, üstəlik də necə çağırmaqdan asılı olaraq, onu tərbiyələndirmək də mümkündür.

## Şəxsiyyətə verilən qiymətin göstəricisi

İnsanı çağırarkən əslində onun şəxsiyyətinə qiymət verirsən və ondan gözlədiyin, ondan umduğun hərəkətlərin qiymətini verirsən. Müəyyənləşildi ki, burada ümumi formul bundan ibarətdir ki, necə çağırırsan-çağır, şərt odur ki, tərəf müqabilinin xoşuna gəlsin, tərəf müqabilin bunu bəyənsin. Burada zaman, məkan, şəraitə görə dəyişiklik ola bilər.

İndi isə digər bir mövzuya - salam vermək bəhsinə keçək.

Salam vermək - ən mühüm bəhslərdən biridir. Ailə elə bir yerdir ki, insan burada ən çox təmasda olduğu insanlarla münasibətdə olur. Ailədəki ab-havadan, ailədəki mühitdən çox şey asılıdır. Ailələr normal olanda, ümumilikdə toplum da normallaşır. Ailələr normal olmayanda, toplumun vəziyyəti son dərəcə acınacaqlı olur.

Bu gün cəmiyyətimizdə ailələrin vəziyyətində çox böyük ağrılıq yaranıb, çox böyük deqradasiya baş verir. Səbəbinin də əsas kökü bundan ibarətdir ki, hər xalqın özünün ailədə münasibətlər baxımından illərdən, əsrlərdən, yüzillərdən keçib gəlmiş və ona çatmış dəyərlər sistemi var. Bu dəyərlər sistemi dağıldıqda və bu dəyərlər sisteminə nəsə əvəzləyici bir şey - daha mütərəqqi - ortalığa qoyulmadıqda, aqibət çox pis olur. Ailələr dağılandan sonra, ailələr aradan gedəndən sonra artıq elə bir vəziyyət yaranır ki, həmin toplumun gələcəyi sual altına düşür.

Bu baxımdan, salam vermək - çox zəruri bir məsələdir. Salam verməyin özünün ən böyük mahiyyətlərindən biri bundan ibarətdir ki, salam - insanlar arasında ünsiyyət yaratmaq, insanlar arasında ülfət, məhəbbət, sevgi yaratmaq üçün ən böyük amillərdən biridir. Salam verilən toplumlarda tam başqa bir durum olur, tam başqa bir ab-hava olur. Salam - kini aradan aparır, salam - küdurəti aradan aparır. Salam bir çox mənfilikləri və bir çox eybəcərlikləri aradan aparır.

Ailəyə gəldikdə də görürük ki, bu, çox mühüm məsələdir. Valideynlə övlad - gün ərzində ən çox rastlaşan insanlardır. Bunların bir-birləri ilə görüşən zaman verdikləri salamların nə qədər əhəmiyyəti var! İslam dininin bununla bağlı baxışı, nəzəri bundan ibarətdir ki, salam mütləq verilməlidir. "Bura evdir", "burada yad adam yoxdur", "burada salamlaşmağın əhəmiyyəti yoxdur" kimi fikirlər çox səhv və yanlış təsəvvürlərdir. Hansıları ki, İslam qəbul etmir.

İnsan evə daxil olanda salam verməlidir. Evdə ailə üzvləri bir-birlərini görən zaman salam verməlidirlər. Övladlar bir-birilərinə salam verməlidirlər. Bu, çox ciddi və mühüm məsələdir.

## Mehribanlığın sadə resepti

Salamın da xüsusiyyətləri var. Salam uca səslə və açıq-aydın verilməlidir. Burun altında, ötəri deyilməli deyil ki, kənardan başa düşülməsin ki, bu salam idi, ya nə idi - aydın olmasın. Bu məsələnin bir tərəfi.

Burada yerinə düşər ki, alimlərin qeyd etdiyi bir balaca mövzuya toxunaq. Çox klassik bir mövzudur. Bir nəfər alimlərdən birinə şikayət edir ki, mən kifayət qədər imkanlıyam, hər bir şəraitim kifayət qədər yaxşıdır, övladlarım var, amma ailədə sanki bir ruhiyyə yoxdur. Ailədə sanki bir sevinc yoxdur. Ailədə sanki bir canlanma yoxdur. Səbəbini də bilmirəm nədir. Mən bilmirəm nə edim.

Bunun cavabında alim qısa bir məsləhət verir ona. Deyir siz evdə salamlaşırsınızmı bir-birinizlə? Kişi soruşur, necə yəni? Deyir yəni evdən gedəndə, evə gələndə salamlaşırsınızmı? Bu məsələlər nə yerdədir? Ev üzvləri bir-biriləri ilə münasibətdə salama, adi bir salama nə dərəcədə əhəmiyyət verir? Kişi cavab verir ki, yox, salamlaşmırıq.

Alim deyir ki, gördüm sual verən çox böyük bir iradla baxır mənə. Sanki, demək istəyir: bu məndən nə istəyir? Mən buna dərdimi demişəm, bu məndən salam haqqında soruşur?! Nəsə söhbət o yerdə qalır. Amma sual verən adam bilir ki, bu alim elə-belə söz deməz. Nəsə bir hikməti var.

Üstündən bir neçə həftə keçir. Həmin o insan alimlə görüşən zaman deyir ki, salam məsələsi möcüzə etdi. Bircə salam ailədə şadlanmaya, yüksək ruhiyyəyə səbəb oldu, ailəyə sevinc gətirdi. Belə ki, bu ailədə tam surətdə hərənin başı özünə qarışmışdı. Salam verməyə başlayandan sonra, yüngülvari də olsa, qarşılıqlı diqqətin təməli qoyuldu. Evə girən salam verir, salam verəndə də adamın üzü gülür. Salam alan da gülümsəməlidir, yaxşı qəbul etməlidir. Bir dəfə, iki dəfə - sonra belə bir vəziyyət yaranır ki, soruşursan nə var, nə yox, necədir, necə deyil. Yavaş-yavaş bir gözəl ruhiyyə yaranır, bir nəcib ab-hava yaranır və s. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur: **“Sizlərdən biriniz evə daxil olan zaman salam versin. Çünki, salam həmin evə bərəkət endirir və mələklər o evlə ünsiyyətə girir”.**

Bu, bir sadə məsələdir. Ola bilər, çoxları üçün, müsəlman mədəniyyətindən kənarda olanlar üçün çox kiçik və əhəmiyyətsiz bir şey kimi görünər. Lakin güzəranını müsbətə dəyişmək istəyən bir insan üçün bu, əslində İslamın bir tövsiyəsidir və buna əməl etmək kifayət qədər zəruridir və bəhrəsi də elə insanın özünə qayıdır.

## Salamı necə verməli

Salam verməyin özünə gəldikdə isə yarışmaq lazımdır yaxşı salam verməkdə, birinci salam verməkdə. Gözləmək lazım deyil kim birinci salam verdi. Ay qoy o versin, sonra mən verərəm, deyərlər ki, belədir, elədir. Ümumiyyətlə, salam verməkdə insanlar bir-biri ilə yarışmalıdır. Həzrət Rəsulullah (s) buyurub: **“Allaha və Onun Rəsuluna ən yaxın olan insan - birinci salam verəndir”.**

Dinimizin salamın ədəbi ilə bağlı əlamətdar tövsiyələri var. Allahın Peyğəmbəri (s) buyurub: **“Kiçik - böyüyə salam versin, 1 nəfər - 2 nəfərə, sayları az olanlar - sayları çox olanlara, yol gedən - dayanana, ayaq üstə duran - oturana salam versin”.** Gördüyümüz kimi, bu düsturu rəhbər tutaraq, toplumda salamın ədəbini rahat yaşatmaq olar.

Əgər salam vermək bəyənilən əməldirsə, salamın cavabını almaq - müsəlman üçün vacibdir. Rəsuli-Əkrəm (s) buyurub: **“Salam vermək müstəhəbdir, salamı almaq isə - vacib”.**

Salama təşviq edən hədisdə Həzrət Əlidən (ə) nəql edirlər: “Salamın 70 savabı var: 69-u salam verənə, 1-i də salam alana çatar”.

Salamın ehsanla müqayisə edildiyi hədisdə İmam Baqirdən (ə) nəql edilir: **"Allah Təala sevir təamın it’amını, salamın (isə) ifşasını".**

Bəli, dinimiz buyurur ki, Allah Təala təamın it’amını sevir, yeməyi ehsan edəndə sevir. İkinci məsələ: Allah Təala sevir salamın ifşasını. Yəni salamın faş olunmasını, yəni salamın açıq-aşkar halda deyilişini.

Bir başqa hədisdə Əziz Peyğəmbərdən (s) nəql olunur ki, **"Salamın ifşası budur ki, müsəlman heç bir müsəlmana salam verməkdə simiclik etməyə".**

İnsanın salam verməkdə gərək simicliyi olmaya. Simiclik etdisə, salamı ifşa etmir. Salamı yaşatmır. Salamın ifşası gəlir bu termin baxımdan, yəni müsəlman heç bir müsəlmana salam verməkdə gərək heç bir simiclik etməyə.

Həzrət Peyğəmbərdən (s) bu mövzuda mübarək bir hədis var: **"Ən aciz insan odur ki, dua etməkdə aciz ola".** Bəli, dua etməyən - çox aciz bir insandır. Davamında gəlir: **"İkinci ən simic insan odur ki, salam verməyi əsirgəyə".** İnsan var ki, salamını ağızucu, dişarası verir. Beləsini dinimiz çox simic sayır.

Bir başqa hədisdə İmam Baqir (ə) buyurur ki, **"Hər vaxt bir kişi ki, evə daxil olur, evdə adam olsa, gərək onları salamlasın, əgər olmasa, gərəkdir ki, desin: "Əssələmun ələynə min indi-Rabbinə"".**

Evdə adam yoxdursa, yenə də salam verməlisən. İslam dini tövsiyə edir ki, salam ver. Mənası da budur ki, salam olsun bizlərə Rəbbin dərgahından. Yəni girmisən evə, evdə insan var, salam verirsən. Əgər adam yoxdursa da, yenə də salam verirsən. Müvafiq atmosfer yaradırsan.

## Ailə üzvlərini gəlişdən xəbərdar etmək

Ailədə qarşılıqlı ədəb mövzusunda İmam Sadiqdən (ə) gələn bir mübarək hədisə də toxunaq. Burada buyrulur ki: **"O vaxt ki, ər evinə daxil olur, gərək salamlaya ailəsini və öncə ayaqqabısını yerə vura və öskürə ki, ailə gəlişindən xəbər tuta".**

Çox maraqlı hədisdir. Hədisin sadə mənası budur ki, ailə başçısı gərək uşaqları pərt edə biləcək, ailə daxilində pərdəni aradan götürə biləcək davranışdan çəkinsin.

Bir vəziyyət görə bilər ki, xoşuna gəlməz. Bəlkə evdə uşaqların bir-biri ilə söz-söhbətləri düşüb, ola bilər uşaq atanın yanında etmədiyi nadincliklə anası ilə danışır, ola bilər ana uşağı ilə bir əsəbi halda danışır ki, evin böyüyü olanda onu etməz. Ən sadə məsələ: bəlkə evə daxil olanda uşaq elə geyimdə olar ki, adətən atasının yanında belə geyinmir və s.

Yəni deyir ki, evə elə girin ki, ev əhli sizin girməyinizə hazır olsun. Evə daxil olanda şəxsiyyət və ləyaqətinizə fikir verin. Həm özünüzün, həm də ev əhlinin. Bu, çox ciddi məsələdir.

O vaxt ki, ailə başçısı evinə daxil olur, gərək ailəsinə salam verin, öncə ayaqqabısını yerə vursun və öskürsün. Təbii ki, burada məqsəd budur ki, evdəkilərə xəbər edə ki, gəlir. Əlbəttə ki, bunu mühitlə, zamanla uyğunlaşdırmaq olar. Əsas məsələ budur ki, ailə əhli xəbər tuta ki, evə gələn var.

Bəli, belə zahirən xırda məsələlərədək dəqiq tövsiyələri var müqəddəs dinimizin.

Təbii ki, salam vermək təkcə ailəyə aid deyil. Bu, ümumilikdə toplum üçün zəruri bir məsələdir. Salam - toplumda məhəbbəti, ünsiyyəti, sevgini artırar, kin-küdurəti aradan aparar. İnsanların üzünü güldürər, insanların üzünün qırışını açar. Salamın belə bir möcüzəvi xüsusiyyətləri var.

**Bəli, ailədə bu, xüsusilə əhəmiyyətlidir. Çünki, ailədə gözəl ab-hava, ailədə harmoniya olsa, toplumda da olacaq. Ailələrdə hər şey qaydasında olsa, nəticə etibarilə, toplumda qarşılıqlı etimada və diqqətliliyə köklənən bir atmosfer bərqərar olacaq.**

**Allahım! Bizləri Sənin bəyəndiyin əxlaqa malik olanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 117 (6731) 2 iyun 2017



# İzmirdə tramvay yol üstündə namaz qılan adamı gözlədi

İzmirdə yol kənarında park edən avtobus sürücüsü tramvay xəttinin kənarında namaz qılmağa başlayıb. Bu arada hərəkətdə olan tramvayın maşinisti tramvayı dayandıraraq, kişinin namaz qılmağı bitirməsini gözləyib. İzmirdə Qarşıyaka səfərlərinə bir müddət öncə başlayan tramvay xəttində yaşanan hadisə sosial mediaya damğa vurub. Avtobus sürücüsü namaz vaxtını qaçırmamaq üçün küçənin sağında maşınını park edəndən sonra yol kənarındakı tramvay xətti üzərində namaza başlayıb. Bu zaman xətdə və hərəkətdə olan tramvayın sürücüsü namaz qılan kişini fərq edərək dayanıb və onun namazını bitirməsini gözləyib. Bu olay həmin vaxt kənardakı binanın balkonunda dayanan vətəndaşlar tərəfindən cib telefonunun yaddaşına köçürülüb. Görüntülərdə namazını tamamlayan kişinin cəld şəkildə ayağa durub, əli ilə tramvayı sürən maşinistə və sərnişinlərə təşəkkür mənasında əl yellədiyi görünür. Tramvay maşinistinin davranışını təqdir edən vətəndaşlar bu görüntüləri sosial media hesablarından paylaşıb.

Bu görüntülər qısa müddət ərzində onlarca insan tərəfindən sosial media hesablarından paylaşılınca minlərlə insana çatıb. Qarşıyaka bələdiyyə başqanı CHP-li Hüseyin Mutlu Akpınar da görüntüləri öz sosial şəbəkə hesabından paylaşıb və izmirli vətəndaşların bu olaya pozitiv yanaşmasına görə onlara təşəkkür edib.

# Almanlar arıqlamaq üçün qanun çıxarırlar



Almaniya hökuməti həddən artıq çəki, pis qidalanma ucbatından hər keçən gün artan xəstəliklərə qarşı mübarizəni genişləndirir. Qida Nazirliyi ölkədə istehsal edilən hazır qidalarla bağlı yeni qaydalar hazırlayır. Bu qaydalara əsasən, hazır qidaların tərkibində dad, saxlanma müddəti və ya keyfiyyətinə heç bir təsir göstərməmək şərti ilə duzu, yağı və şəkər tozu azaldılmalıdır. Bu qidaların miqdarı ilə bağlı məhdudiyyət qanunla tənzimlənəcək. Almaniyanın qida naziri Kristian Şmidt hazır qidalardakı duz, şəkər və yağ miqdarının azaldılması üçün bir qanun hazırladıqlarını və 2018-ci ilin ortasına qədər qanunun hazırlanıb, qüvvəyə minəcəyini açıqlayıb. Bu isə Almaniyada gündən-günə artan şişmanlıq probleminin qarşısını hansısa bir formada almaq cəhdindən xəbər verir.

# Həm ruha bənzəyir, həm də dünyanın ən məşhur manekenidir

Cənubi Afrikada yaşayan albinos qız dərisinin rəngi ucbatından uşaqlığı boyunca təhqir və zarafatlara məruz qaldı. Amma indi fərqli görünüşü sayəsində manekenlik edir. Cənubi Afrikanın Durban bölgəsində yaşayan 20 yaşlı Nontobeko Mbuyazi xarici görünüşü ucbatından insanların daim onu doladıqları bir uşaqlıq keçirib. Afrikada albinosların daim məruz qaldığı ayrı-seçkiliyin qurbanı olan Mbuyazi fərqli gözəlliyinə görə bir müddət sonra moda agentliklərinin diqqətini çəkib. Bir müddətdir moda çəkilişlərinə başlayan və solğun dərisinin ona ayrı bir gözəllik qatdığını söyləyən qadın yorğun bir tempdə çalışır. Uşaqkən dostlarının ona "ruh", "xəyalət" dediyini xatırladan Mbuyazi həmin illərdə daim papaq taxmaq məcburiyyətində idi. Amma o, mediaya müsahibəsində deyib ki, albinos olduğu üçün insanların onu aşağılamasına, əhvalını korlamasına imkan verməyəcək. Manekenin sözlərinə görə, digər albinoslar da xarici görünüşlərini sevməli və bununla yaşamağı öyrənməlidir.






# Dünyanın ən kök modeli alt paltarında şəkil çəkdirdi

Dünyanın ən kök manekeni Tess Hollidey alt paltarında şəkil çəkdirib və bunu özünün İnstaqram səhifəsində paylaşıb. Fotoda o, Kaliforniya ştatında yerləşən Malibunun möhtəşəm mənzərəsindən zövq alır. Bu şəkil sosial şəbəkədə 67 min bəyəni yığdı. Hollideyin səhifəsini 1.4 milyon nəfər izləyici təqib edir.

Aprel ayında isə Hollidey İnstaqram səhifəsində bir taksi sürücüsü ilə dialoqunu yaymışdı. Rolikdə Uber sisteminə bağlı olan taksi sürücüsü manekenə deyir ki, artıq çəki onun sağlamlıq problemlərinin olduğunu sübut edir. Tess Hollidey moda industriyasındakı ən kök maneken sayılır. 2015-ci ildə o, nüfuzlu model agentliyi olan "Milk Model Management"lə müqavilə bağlayıb. Onun geyim ölçüsü 60-dır.




**QOÇ** - Ulduzların düzümü daha çox maliyyə məsələlərində uğurlara nail olacağınızdan xəbər verir. Ələlxüsus da nahardan sonra büdcənizi artırmaq üçün bütün mümkün variantlardan yararlanmalısınız.

**BUĞA** - Qərar verərkən mövcud situasiyaları mütləq nəzərə alın. Atdığınız addımları dəfələrlə götür-qoy edin. Axşama yaxın kimlərsə sizi sevindirə bilər. Gecə mütləq öz evinizdə qalın.

**ƏKİZLƏR** - Təxminən saat 19-a qədər nəzərdə tutduğunuz bütün ədalətli işlərdə müvəffəqiyyətə yaxın olacaqsınız. Sonrakı saatlarda isə davranışlarda özünüzü tənzimləməlisiniz. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Saat 14-ə qədər gözlənilən gərginlikdən sovuşa bilsəniz, günün qalan vaxtı rahat keçəcək. Buraxdığınız səhvlərə haqq qazandırmaqdansa, onları düzəltməyə çalışın. Bəxtinizdə pul da var.

**ŞİR** - Səbəbsiz yerə qızışmaq, daima gileylənmək sizə zərərdir. Gərginliyinizi azaltmaq üçün başınızı işlə qatın. Bir də nəzərə alın ki, çoxuna baxanda sizin vəziyyət xeyli yaxşıdır.

**QIZ** - Müəyyən gərginliklə müşahidə olunsa da, bu, nəzərdə tutduğunuz planların reallaşmasında ciddi maneə yaratmayacaq. Saat 15-18 aralığında qarşınıza çıxan şanslardan yararlanmağa çalışın.

**TƏRƏZİ** - Kənardan dəstəyin olacağını daha çox hiss edən ulduzlar boş dayanmamağı məsləhət görür. Nə qədər aktiv olsanız, uğurlarınız da bir o qədər artacaq. Bu gün uzaq yola çıxmayın.

**ƏQRƏB** - Maraqlı hadisələr yolunuzu gözləyir. Amma bu təqvimdə diplomatik qabiliyyətinizi maksimal tərzdə yüksəltməli, öz söhbətlərinizlə hamının diqqətini cəlb etməlisiniz. Gərginlikdən qurtulacaqsınız.

**OXATAN** - Təxminən saat 17-yə qədər yalnız adi işlərin həlli ilə məşğul olun. Risk və ya qeyri-ənənəvi addımlar uğursuz ola bilər. Axşama doğru isə ürəyinizə yaxın adamlarla bir yerdə olun.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq, perspektivli sövdələşmələrdə iştirak üçün səmərəli vaxtdır. Bu, ay ərzində çox arzunuzun reallaşmasına xidmət edə bilər. Gün şüasından ehtiyatlanın.

**SUTÖKƏN** - Böyük dəyişikliklər astanasındasınız. Ruhdan düşməyə heç bir lüzum yoxdur. Kiminsə xətrinə dəyməyin. Əksinə, hamıya dəstək verin ki, onlar da gələcəkdə sizinlə həmdəm olsunlar.

**BALIQLAR** - Çox güman ki, xeyli vaxtdan bəri görmədiyiniz adamlarla rastlaşacaqsınız. Bu amil sizi xeyli rahatlandıracaq. Ulduzlar nahardan sonra sizə başqa sürprizlər də vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# "Rolls-Royce"un yeni maşını 12.8 milyon dollaradır




Lüks maşın istehsalçıları arasında xüsusi yeri olan "Rolls-Royce"un yeni maşını "Rolls Royce Sveptail" böyük səs gətirib. Ötən həftə İtaliyadakı maşın sərgisində nümayiş olunan "Rolls Royce Sveptail"in 12.8 milyon dollara satılacağı söylənir. Bu qiymətlə "Sveptail" dünyanın ən bahalı maşını olacaq. "Rolls-Royce"sun 1920-ci illərdəki dizaynını xatırladan "Sveptail" sözügedən markanın klassik çizgisi ilə modern baxış bucağını bir araya gətirir. Qiyməti ilə diqqəti cəlb edən "Rolls Royce Sveptail"in ölçüsü də yetərincə böyükdür. "Rolls Royce" yeni maşını ilə digər lüks maşın istehsalçılarını geridə qoymağı planlaşdırır. "Rolls Royce"un təmsilçisi Torsten Müller-Ötvös deyib ki, son model böyük ehtimalla indiyə qədər istehsal edilmiş ən bahalı maşındır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100